# Xalq qəzeti

Xalqın qəzeti!

№ 186 (30590) 30 avqust 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan dünyada idman ölkəsi kimi tanınır

## Prezident İlham Əliyev Dünya Etnoidman Konfederasiyasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.**

Bilal Ərdoğan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

Dünya Etnoidman Konfederasiyasının fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan Prezidenti əldə olunmuş uğurlar münasibətilə təbriklərini çatdırdı. Dövlətimizin başçısı ölkəmizin Konfederasiyada fəal təmsil olunduğunu bildirərək, Azərbaycan idmançılarının bu qurumun yarışlarında uğurla iştirak etdiklərini dedi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin olduğu bir daha qeyd edildi, Azərbaycanın və Türkiyənin həmişə bir-birinin yanında olduqları vurğulandı.

***AZƏRTAC***

## Sabah "sükut günü"dür



Səhifə ⇨ 5

## COP29-a hazırlıq Azərbaycanı ekoloji mübarizə mərkəzinə çevirib




Səhifə ⇨ 8

## Bir ədibin publisistik manifesti



Səhifə ⇨ 9



# Ermənistanda "konstitusiya dəyişikliyi" isteriyası

## *Oyun nəyə hesablanıb?*

**Ermənistanda konstitusiya referendumunun 2027-ci ildə keçirilməsi planlaşdırılır. Bunu dünən yerli jurnalistlərlə söhbətində ölkənin ədliyyə naziri Qriqor Minasyan deyib. Onun sözlərinə görə, müzakirələr nəticəsində belə qərara alınıb ki, Ermənistana konstitusiya dəyişiklikləri yox, yeni konstitusiya lazımdır. Minasyanın qeyd edib ki, müvafiq komissiyanın iclasları zamanı konstitusiyanın ilk üç maddəsinə dəyişiklik, habelə ölkənin İstiqlaliyyət Bəyannaməsinə istinadın götürülməsi məsələsi müzakirə olunmayıb: "Biz bu mürəkkəb sənəd üzərində ətraflı, ictimai müzakirələrlə, bütün mütəxəssislərlə birgə işləyərək çalışacağıq".**

Qeyd edək ki, artıq neçə aydır Ermənistanda konstitusiya dəyişikliyi ilə bağlı müzakirələr getməkdədir. Əlbəttə, bu xüsusda çoxsaylı destruktiv məqamlar var. Bu məqamlar Azərbaycanın mövcud istiqamətdəki tələbi ilə bağlıdır. Məlum olduğu kimi, həm Prezident İlham Əliyev, həm də ölkəmizin rəsmiləri Ermənistan konstitusiyasına dəyişikliyi Bakı–İrəvan sülhü baxımından şərt kimi irəli sürüblər. Çünki erməni ana qanununun istinad etdiyi İstiqlaliyyət Bəyannaməsində Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiası yer almaqdadır.

*(ardı 4-cü səhifədə)*

# Zaxarova nəyi təhlükəli sayır?

## *"Zəngəzur dəhlizi" və ortaq regional maraqlar*

**Rusiya Cənubi Qafqazda regional kommunikasiyaların açılmasında maraqlıdır və bunu hər ötən gün daha ciddi şəkildə ortaya qoymaqdadır. Ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın avqustun 28-də keçirdiyi ənənəvi brifinq zamanı dilə gətirdikləri də bunun təsdiqidir. Söhbətimizdə onun mövzuya dair nələri bildirməsindən və digər məqamlardan söz açacağıq. Hələlik isə...**




Rusiyanın Xarici işlər naziri Sergey Lavrov ölkə Prezidenti Vladimir Putinin Azərbaycana avqustun 18-19-da gerçəkləşdirdiyi dövlət səfəri əsnasında Ermənistanı ittiham edərək bildirmişdi ki, rəsmi İrəvan regional kommunikasiyaların açılmasını sabotaj edir: "Biz sülh müqaviləsinin tezliklə bağlanması və kommunikasiyaların açılmasının tərəfdarıyıq. Təəssüf ki, Ermənistanın Sünik rayonundan keçən kommunikasiyalara gəldikdə, məhz Ermənistan rəhbərliyi baş nazir Nikol Paşinyanın imzaladığı razılaşmanı sabotaj edir. Belə bir mövqeyin mənasının nədən ibarət olduğunu dərk etmək çətindir. Mən əminəm ki, üçtərəfli sənədlər çərçivəsində qoyulan özül tam həcmdə aktuallığını qoruyub saxlayır".

*(ardı 3-cü səhifədə)*

## Fransada islamofobiya və antisemitizm tüğyan edir



**Özünü dünyada "demokratiyanın beşiyi" hesab edən, başqa xalqlara və dövlətlərə necə yaşamaq lazım olduğunu öyrətməyə çalışan, müstəmləkə keçmişə malik olan, habelə neomüstəmləkəçiliyi bu gün də davam etdirən, Cənubi Qafqazda suların durulmasına imkan verməyən Fransa dini dözümsüzlük sahəsində də, necə deyərlər, öndədir. Özü də bu dini dözümsüzlük təkcə İslam dini və müsəlmanlarla bağlı deyil. Üç səmavi dindən biri olan iudaizm və onun tərəfdarları da Fransada xoş günlər yaşamırlar.**

*(ardı 3-cü səhifədə)*

## Meymunçiçəyi ölkəmizə kənardan gətirilə bilər



Səhifə ⇨ 11

# “İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin 136-cı kitabı çapdan çıxıb

**“Biz, eyni zamanda, bərpaolunan enerji mənbələrinə investisiyalar cəlb etdik. Sadəcə, onu qeyd edim ki, Günəş və küləyin olması bizim üçün böyük bir vəsilədir. Bakılılar gecə-gündüz əsən küləkdən bəzən şikayətlənirlər. Təxminən ildə 300 gün külək əsir, amma indi o, Xəzər dənizindən nəinki təmiz hava, həm də təmiz enerji gətirəcək. Ona görə də düşünürəm ki, bir neçə ildən sonra biz dediklərimin şahidi olacağıq. Daha əvvəl qeyd etdiyim kimi, artıq başlayan və layihələndirilən təşəbbüslər var. Biz mədən yanacağından yaşıl enerjiyə keçid baxımından lider ölkələr sırasında olacağıq. Elektrik enerjisinə olan tələbatımızı bərpaolunan enerji mənbələri ilə təmin etməyi və ehtiyacı olanlara qaz ixrac etməyi planlaşdırırıq”.**




“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 136-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda keçirilmiş beynəlxalq forumda sualları cavablandırarkən söyləyib. Forumun materialları ilə bu kitabda tanış olmaq mümkündür.

Çoxcildliyin 136-cı cildində toplanmış materiallar 2024-cü ilin aprel-may aylarını əhatə edir.

Yeni kitaba Azərbaycan Prezidentinin “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya və Mədəniyyətlərarası Dialoq Forumundakı nitqinin, Şuşanın Cıdır düzündə VII “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalının və “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin açılış mərasimində çıxışının mətnləri daxil edilib.

Nəşrdə Prezident İlham Əliyevin Azərbaycana dövlət səfərinə gəlmiş Qırğız Respublikasının Prezidenti Sadır Japarovla görüşünə, iki ölkə arasında sənədlərin imzalanmasına, dövlət başçılarının mətbuata birgə bəyanatlarına, habelə Füzuli və Ağdam rayonlarına səfərlərinə dair informasiyalar verilib. Kitabda Azərbaycana səfərə gəlmiş Bolqarıstan Prezidenti Rumen Radev, Belarus Prezidenti Aleksandr Lukaşenko ilə keçirilmiş görüşlər, imzalanmış sənədlər, birgə bəyanatlar haqqında da məlumat yer alıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin Almaniyaya işgüzar səfərinə dair materiallarla, Berlində “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində çıxışının mətni ilə də tanış ola bilər.

Prezident İlham Əliyev may ayında Füzul, Şuşa və Laçın rayonlarına səfər edib, aparılan bərpa işləri ilə tanış olub. Dövlətimizin başçısı Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoyub, Şuşada 1-ci yaşayış kompleksinin açılış mərasimində iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüb, həmçinin Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb, “Azərenerji” ASC-nin “Zabux” və “Qarıqışlaq” kiçik su-elektrik stansiyalarının açılış mərasimində iştirak edib. Yeni kitabda bütün bunlar haqqında ətraflı məlumat verilib.

“Azərnəşr” tərəfindən buraxılan 136-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Konstitusiya Məhkəməsində görüş



**Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova avqustun 29-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar seçki müşahidə missiyasının rəhbəri Ditmir Bushatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı qonaqlara növbədənkənar parlament seçkiləri ilə bağlı Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında təsbit edilmiş səlahiyyət və funksiyaları barədə məlumat verilib.

Ditmir Bushati məlumata görə təşəkkürünü bildirərək Seçki Müşahidə Missiyasının fəaliyyəti və məqsədlərindən danışıb.

Sonda seçki prosesi ilə bağlı bəzi hüquqi məsələlər müzakirə olunub.

***XQ***

# TDT müşahidə missiyası YAP-da

**Avqustun 29-da Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türk Dövlətləri Təşkilatı müşahidə missiyasının rəhbəri, TDT Baş katibinin müavini Ömer Kocaman və missiyanın digər üzvləri arasında görüş keçirilib.**



Ömer Kocaman TDT müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib, parlament seçkilərinin Azərbaycanın seçki təcrübəsinin daha da zənginləşməsinə və ölkənin inkişafına təkan verəcəyinə inamını ifadə edib.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov TDT müşahidə missiyasının Azərbaycanda seçkilərin ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun keçirilməsinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. Azərbaycanın parlament seçkilərinə tam hazır olduğunu, bütün texniki və təşkilati məsələlərin yerinə yetirildiyini söyləyən Tahir Budaqov indiyədək seçki prosesinin gedişatı ilə əlaqədar hər hansı ciddi problemlərin olmadığını qeyd edib.

Sonra Tahir Budaqov YAP-ın seçkilərə hazırlıq çərçivəsində gördüyü işlərə və seçki prosesinin gedişatına dair missiyanın üzvlərinin suallarını cavablandırıb.

***XQ***

# Energetika naziri Hacıqabulda qəbul keçirib



**Energetika naziri Hacıqabul şəhərində vətəndaşların müraciətlərini dinləyib.**

Görüş zamanı vətəndaşların enerji təchizatı, elektrik avadanlıqlarının istismar vəziyyəti, sayğacların quraşdırılması, elektrik qurğu və avadanlıqlarının mühafizə zonası və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə Hacıqabul rayonu ilə yanaşı, Bakı, Şirvan, Ağcabədi şəhərləri, Ağdam, Biləsuvar və Sabirabad rayonlarından olan vətəndaşlar iştirak ediblər.

***XQ***

# Mehriban Əliyeva Parataekvondoçu Sabir Zeynalovla bağlı paylaşım edib



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Parisdə keçirilən Paris-2024 Yay Paralimpiya Oyunlarında ölkəmizi təmsil edən Azərbaycanın Parataekvondoçu Sabir Zeynalovla bağlı paylaşım edib.**

Paylaşımda deyilir:

“Parataekvondoçu Sabir Zeynalov “Paris-2024” Yay Paralimpiya Oyunlarında Azərbaycana ilk medalı qazandırdı! Bürünc mükafatçını səmimi-qəlbdən təbrik edir, milli yığmamızın bütün üzvlərinə güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!”

# Baş nazirin müavini Şahin Mustafayev Özbəkistanda



**Avqustun 29-da Özbəkistanın Termez şəhərində “Termez” Beynəlxalq Ticarət Mərkəzinin rəsmi açılışı olub. Mərasimdə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib. Tədbir çərçivəsində Ş.Mustafayev ölkənin Baş naziri Abdulla Aripovla görüşüb.**

Görüşdə bildirilib ki, Azərbaycan–Özbəkistan dostluq və qardaşlıq münasibətləri bu gün prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin uzaqgörən siyasəti, qarşılıqlı səfərləri və mütəmadi təmasları nəticəsində artan templə inkişaf etməkdədir.

İki ölkə arasında iqtisadi-ticari əməkdaşlığın inkişaf dinamikasından məmnunluq ifadə olundu, cari ilin yanvar-iyul aylarında ticarət dövriyyəsinin 28 faiz artdığı bildirilib. Eyni zamanda, nəqliyyat-tranzit sahəsində əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilərək, 2024-cü ilin ilk yarısında iki ölkə arasında tranzit daşımaların həcminin ötən ilin eyni dövrü ilə müqayisədə 37 faiz artdığı məmnunluqla qeyd olunub.



Vurğulanıb ki, Prezident İlham Əliyevin avqustun 22-23-də Özbəkistana dövlət səfəri zamanı müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması iki ölkə arasında əlaqələrdə yeni səhifə açaraq, onları ən yüksək səviyyəyə qaldırıb.

Eyni zamanda, səfər əsnasında keçirilmiş Azərbaycan–Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclasında qəbul edilən qərarların əhəmiyyəti vurğulandı, dövlət başçıları tərəfindən verilən tapşırıqların yerinə yetirilməsi üçün iki ölkənin hökumətlərinin səylərinin birləşdirilməsinin zəruriliyi qeyd olunub.

Hərtərəfli strateji tərəfdaşlığın dərinləşdirilməsinə dair yeni beşillik Yol Xəritəsinin tərtib edilməsi və imzalanması dövlət başçıları tərəfindən qarşıya qoyulan mühüm vəzifələrdən biri kimi dəyərləndirilib.

Azərbaycan və Özbəkistan tərəfindən müxtəlif sahələrdə, xüsusilə investisiya, sənaye, kənd təsərrüfatı, nəqliyyat, neft-qaz sahələrində həyata keçirilən birgə layihələrin uğurlu nəticələri təqdir edilib.

Azərbaycan Prezidentinin dövlət səfəri zamanı bir çox yeni istiqamətlər üzrə birgə layihələrə başlanılmasının əhəmiyyəti vurğulanıb.

Yeni açılan “Termez” Beynəlxalq Ticarət Mərkəzinin ticarət əlaqələrinin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi baxımından əhəmiyyəti göstərilib.

Səfər zamanı Şahin Mustafayev, həmçinin Əfqanıstanın Baş naziri vəzifəsini icra edən Əbdül Qani Baradarla görüşüb. Görüşdə Azərbaycan ilə Əfqanıstanı tarixi və mədəni bağların birləşdirdiyi qeyd edilib.

İki ölkə arasında ticarət-iqtisadi və sərmayə qoyuluşu sahələrində əlaqələrin perspektivləri müzakirə edildi, müvafiq əməkdaşlığın genişləndirilməsi ilə bağlı qarşılıqlı maraq ifadə olundu. Tərəflər, həmçinin nəqliyyat-tranzit sahəsində əməkdaşlıq imkanlarını nəzərdən keçirərək, “Lapis-Lazuli” beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin önəmini qeyd ediblər.

“Termez” Beynəlxalq Ticarət Mərkəzinin açılmasının Əfqanıstanla da ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə töhfə verəcəyinə inam ifadə edilib.

***XQ***

# Zaxarova nəyi təhlükəli sayır?



**(əvvəli 1-ci səhifədə)**

Xatırladaq ki, Rusiyanın XİN rəhbərinə Ermənistandan cavab da gəlmişdi. Ölkənin xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyanın nələri bildirdiyini diqqətə çatdıracağıq. Ancaq əvvəlcə Lavrovun sabotaj dedikdə konkret hansı məqamı nəzərdə tutduğu üzərində dayanaq və diqqəti Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu bəndinə yönəldək. Həmin bənddə göstərilir ki, "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Ermənistanın XİN rəsmisi A.Badalyan isə bildirmişdir ki, Rusiya XİN-nin müxtəlif rəsmilərinin onun ölkəsi ilə bağlı həqiqətə uyğun olmayan, açıq-aşkar qərəzli, tez-tez hörmətsiz şərhləri davam edir. Onun sözlərinə görə, belə hallar yeni deyil və erməni tərəfi bu cür şərhlərə uzun müddətdir cavab vermirdi: "Rusiya XİN rəhbərinin dünənki bəyanatı nəinki açıq-aşkar təəssüf hissi doğurur, həm də Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesində Rusiya Federasiyasının konstruktiv iştirakını şübhə altına alır".

A.Badalyanın fikirləri onu deməyə əsas verir ki, rəsmi İrəvan nə Rusiyanı, nə də bu ölkənin səyləri ilə ərsəyə gəlmiş və Ermənistanın 44 günlük müharibə ilə tam məhvinin qarşısını alan üçtərəfli bəyanatı sayır. M.Zaxarova isə bildirir ki, Moskva müvafiq razılaşmaların (Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020–2022-ci illərdə qəbul etdikləri üçtərəfli sazişlərin – red.) həm Azərbaycanın, həm Ermənistanın, həm də regiondakı qonşu dövlətlərin – Rusiyanın, İranın və Türkiyənin maraqlarına cavab verən şəkildə, qarşılıqlı razılıq əsasında və məqbul şərtlərlə həyata keçirilməsinin tərəfdarıdır. O, beynəlxalq Şimal–Cənub nəqliyyat dəhlizindən söz açıb və bu marşrutla bağlı Azərbaycan və İranla təmaslar aparıldığını deyib. Zaxarovanın fikirlərindən gəlinən nəticə odur ki, sözügedən yol Rusiyadan, Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən keçməklə, Qərbə doğru daşımaların reallaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.




Bəli, başlıca diqqətin "Zəngəzur dəhlizi" üzərində cəmləşdiyi aşkardır. Bu dəhlizə qarşı çıxan Ermənistandır. Zaxarova isə vurğulayır ki, Azərbaycanın əsas hissəsini Ermənistan ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirməli olan marşrut bir sıra digər marşrutlarla yanaşı, bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılması üzrə üçtərəfli işçi qrupu çərçivəsində Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin birgə sədrliyi ilə müzakirə edilib. Bu üçtərəfli işçi qrupunda fəaliyyət üçtərəfli razılaşmalara uyğun həyata keçirilir.

Zaxarova İranın "Zəngəzur dəhlizi" ideyasından narahatlığı və ölkə rəsmilərinin buna uyğun bəyanatlar səsləndirmələrindən də danışıb. Hərçənd, məsələnin üzərindən ötəri keçib. Məlumdur ki, İran rəsmi İrəvan kimi ərazi bütövlüyünün və suverenliyin toxunulmazlığı məntiqini qabardır. Daha doğrusu, Ermənistan ərazilərinin dəyişilməzliyi üzərində dayanır və yenə mövqeyində israrlıdır.

Bakının tələbi odur ki, Naxçıvana yol "Azərbaycandan Azərbaycana yol" kimi olsun. Yəni, orada hansısa gömrük və sərhəd nəzarəti tətbiq edilməsin. Üçtərəfli bəyanata əsaslansaq isə yola Rusiya sərhədçiləri nəzarət etməlidirlər. Rusiyanı bölgədən sıxışdırmaq istəyən Qərb məsələnin belə qoyuluşu ilə razılaşmır. Müvafiq olaraq, rəsmi İrəvan ərazi bütövlüyü və suverenlik amilini qabardır. Ən əsası isə özünün "Dünyanın kəsişməsi" adlı avantürasını ortaya atır. Heç şübhəsiz, bu avantüra Ermənistanı qlobal tranzitin həlledici fiquruna çevirmək məqsədini güdür. Nəticə etibarilə İrəvan gələcəkdə həmin tranzitdəki həlledici roluna arxalanıb əlavə ambisioz tələblər irəli sürmək şansı qazanacaq.

Maraqlı durum yaranır: Qərbin fəal müdafiə etdiyi "Dünyanın kəsişməsi" və bu təşəbbüs çərçivəsində regional kommunikasiyaların açılmasını əsas götürəcək Azərbaycan–Ermənistan sülhü Rusiyanın bölgədən sıxışdırılmasını hədəf seçirsə, o zaman İran nə üçün bu ssenaridə iştirakda maraqlıdır? Tutalım, Rusiya Cənubi Qafqazdan çıxdı. Məgər Tehranda bilmirlər ki, Moskvaya yer verilməyən regionda İrana ümumiyyətlə yer yoxdur? Görəsən, Ermənistana çoxmu etimad göstərirlər? Kim təminat verə bilər ki, Qərb Kremllə məsələni bitirdikdən sonra İrana keçməyəcək və Ermənistanı Moskvaya qarşı istifadə etdiyi qaydada Tehrana qarşı da istifadə etməyəcək? Zaxarova dilə gətirməsə də, heç şübhəsiz, onun da İran rəsmilərindən soruşmaq istədiyi elə budur.

Yeri gəlmişkən, əlavə bir məqamın üzərində dayanaq. M.Zaxarova bir müddət əvvəlki açıqlamasında da regional kommunikasiyaların blokdan çıxarılmasından bəhs etmişdi. Daha dəqiq desək, bununla bağlı Ermənistanın destruktiv mövqeyinin, öhdəliklərdən yayınmaq, razılaşmalardan boyun qaçırmaq potensialının vacib detalından danışmışdı. Rusiya XİN sözçüsü demişdi ki, Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin həmsədrlik etdiyi nəqliyyat əlaqələrinin blokdan çıxarılması üzrə üçtərəfli işçi qrupunun 12 raundluq müzakirəsindən sonra, tərəflər üçtərəfli sazişin 9-cu bəndinin praktiki icrasına yaxın görünüblər. Bundan başqa, Azərbaycan Ermənistanın dəmir yolu əlaqəsinin bərpasını avtomobil yolu ilə əlaqələndirməmək istəyi ilə razılaşıb. Özü də bu, İrəvanın avtomobil yolu əlaqəsinin yaradılması baxımından konkret tarix göstərməməsinə rəğmən baş verib.

Ən əsası, M.Zaxarovanın bildirdiklərindən o nəticə də hasil olur ki, tərəflər iki ölkənin suverenliyini pozmamaq üçün tam yuridik əsaslarla həyata keçirilməli olan gömrük prosedurlarına qədər hər şeyi razılaşdırıblarmış. Ancaq rəsmi İrəvan son anda mövqeyindən uzaqlaşaraq, Rusiya sərhədçilərinin təkcə Ermənistan deyil, həm də Azərbaycan tərəfində nəzarəti həyata keçirməsi şərtini irəli sürüb. Biz də bilirik, Zaxarova da təsdiqləmişdi ki, Azərbaycan məsələ ilə razılaşa bilməzdi və razılaşmayıb. Görünür, İrəvan yerinə yetirilməsi mümkünsüz şərti məhz bu səbəbdən qoyub.

Bəli, beləliklə, Lavrovun sabotaj məntiqindəki daşlar tam şəkildə yerinə oturur. Yəni, danışıqların nə üçün dalana dirəndiyi aydınlaşır. Əlavə edək ki, Ermənistan sonradan Rusiya sərhədçilərinin nəqliyyat axınına nəzarətindən də imtina edib və üçtərəfli işçi qrupunda iştirakını, faktiki olaraq, dondurub. Lap əvvəldə diqqətə çatdırdığımız fikrə qayıdaraq, bir daha Rusiyanın Cənubi Qafqazda regional kommunikasiyaların açılmasında marağının olduğunu vurğulayaq. Marağın ödənmə vasitəsinin üçtərəfli bəyanat olduğunu da diqqətə çatdırdıq. Qalır Zaxarovanın avqustun 28-də keçirdiyi brifinq zamanı dilə gətirdiyi bir fikrin üzərində dayanmaq. Rusiya XİN rəsmisinin söylədiklərindəki başlıca qayə budur: Üçtərəfli bəyanat məntiqinə məhəl qoymamaq təhlükəlidir. Əlbəttə, xanım sözçü təhlükənin konkret nədən ibarət olduğunu açıqlamır və maraqlıdır ki, ondan bu barədə soruşan da yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Fransada islamofobiya və antisemitizm tüğyan edir

**(əvvəli 1-ci səhifədə)**

Fransa hazırda açıq-aşkar antisemitizm dalğası ilə üzləşib. Məsələ ondadır ki, 2024-cü ilin birinci yarısında rəsmi şəxslər antisemitizm zəminində 887 qanun pozuntusu qeydə alıblar. Bu barədə gündəlik 10 milyon izləyiciyə malik olmaqla Fransanın ən çox baxılan xəbər kanalı olan BFM TV-nin ötən həftənin şənbə günü Ero departamentinin La-Qrand-Mott kommunasında sinaqoq yaxınlığında avtomobillərin yandırılmasına dair hazırladığı süjetdə bildirilib. Telekanalın məlumatına görə, 2023-cü ilin analoji dövründə 304 antisemitizm təzahürü qeydə alınıb, yəni antisemitizmlə bağlı qanun pozuntularının sayı, demək olar ki, üç dəfə artıb.

Ölkənin cənubunda yerləşən La-Qrand-Mott kommunasında sinaqoq qarşısında iki avtomobilin yandırılması və avtomobillərdən birinə qoyulmuş qaz balonunun partlaması nəticəsində bir bələdiyyə polisi yaralanıb. Həmin vaxt sinaqoqda ravvin də daxil olmaqla beş nəfər var idi.

İşin istintaqına Fransa Milli Antiterror Prokurorluğu da qoşulub. Fransanın Daxili işlər naziri vəzifəsini müvəqqəti icra edən Cerald Darmanen bütün ölkə üzrə sinaqoqların və yəhudi icma mərkəzlərinin yaxınlığında təhlükəsizliyin gücləndirilməsinə dair göstəriş verib. O, dövlət televiziya kanalının efirindən bildirib ki, ilin əvvəlindən Fransada antisemitizm təzahürlərinin sayı təqribən 200 faiz artıb. Darmanen La-Qrand-Mott şəhərində sinaqoqun yandırılmasını "iyrənc hərəkət" adlandırıb. Onun sözlərinə görə, din əleyhinə hərəkətlərin üçdə ikisi yəhudilərə qarşı yönəlib: "Ravvinin və ailəsinin yaşadığı sinaqoqu qəsdən yandırmaq, əlində balta ilə onları gözləmək antisemitizm aktıdır və bunu məhz belə adlandırmaq lazımdır. Bəli, bu gün antisemitizm aktlarının sayı artıb. Yəhudilərə və İsrailə nifrət istədikləri dinə etiqad etmək hüququ olan fransız uşaqlara, qadınlara və kişilərə ötürülür".

Qeyd edək ki, hazırkı Fransa bəzən qeyri-rəsmi şəkildə "Beşinci respublika" da adlandırılır. Bu ifadə Fransa tarixində 1958-ci il oktyabrın 4-dən, yəni, yeni konstitusiyanın qəbulundan indiyə qədər olan dövrü nəzərdə tutur. Avropa İttifaqının və NATO-nun aparıcı dövlətlərindən, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Fransanın milli devizi "Azadlıq, bərabərlik, qardaşlıq"dır. Ancaq bu gün bütün dünya "Beşinci respublika"da bunun əksini müşahidə etməkdədir. Ümumiyyətlə, Fransa tarixən antisemitizm təzahürlərinin yüksək dərəcədə olması ilə seçilib. Hələ 1808-ci il martın 17-də Napoleon I Bonapart yəhudilərin hüquqlarını qismən məhdudlaşdıran, onları müxtəlif departamentlərdə fərqləndirən fərman imzalayıb. Həmin fərman tarixə "rüsvayçılıq fərmanı" kimi düşüb. Məhdudiyyətlər rejimi imperiyanın sonuna kimi qüvvədə qalıb və yalnız 1818-ci ildə kral XVIII Lüdovik fərmanın müddətini uzatmaqdan imtina edib.




İkinci dünya müharibəsi illərində nasist Almaniyasının işğal etdiyi Fransa ərazisində yaradılmış Vişi rejimi nasistlərlə əməkdaşlıq edərək çox sayda Fransa yəhudilərini və xarici yəhudi qaçqınlarını konsentrasiya (cəmləşdirmə) düşərgələrinə deportasiya edib. Müharibənin sonuna qədər Fransadakı 330 min yəhudidən təxminən 72 500-ü Holokost nəticəsində həlak olmuşdu.

Fransada yəhudi əhalinin sayı 1950-1960-cı illərdə Yaxın Şərq ölkələrində antisemitizmin yüksəlməsi nəticəsində fransızdilli yəhudilərin Əlcəzair, Mərakeş və Tunis kimi ölkələrdən Fransaya mühacirət etdikləri zaman kəskin şəkildə artıb. Bunun nəticəsində Fransa hazırda yəhudi əhalinin sayına görə dünyada İsrail və ABŞ-dən sonra üçüncü yeri tutur. 2024-cü ilin may ayına olan statistikaya görə, Fransada 440 min yəhudi yaşayır. Bu, bütün dünyada yaşayan yəhudilərin 3 faizi deməkdir.

Eyni zamanda, müharibədən sonrakı Fransada antisemitizm davam edib və güclənib. Dövlətin 1967-ci ildən başlayaraq anti-sionist siyasət aparmasının, həm sağ mühafizəkar, həm də solçu anti-sionist siyasətçilərin nüfuzunun artması Holokostun inkarının yayılmasına gətirib çıxarıb. 1990-cı illərdən etibarən sorğular fransız əhalisi arasında stereotip antisemit düşüncələrin artdığını göstərir.

2000-ci ildən sonra "Beşinci respublika"da yəhudilərə və yəhudi obyektlərinə hücumlar xeyli artdı. Bu, "yeni antisemitizm" haqqında müzakirələrə səbəb oldu. Müzakirələr zamanı yəhudilər bildirirdilər ki, onlar Fransada artıq özlərini təhlükəsiz hiss etmirlər. Artan antisemitizmə cavab olaraq, XXI əsrdə daha çox Fransa yəhudisi İsrailə köçür. 2006-cı ildən 2016-cı ilə qədər təxminən 40 min Fransa yəhudisi İsrailə repatriasiya edib. Bu, bütün fransız yəhudi diasporunun ümumi sayının təxminən 10 faizi deməkdir.

Fransada antisemitizm əhval-ruhiyyəsinin kəskin şəkildə artmasının, yəhudi icmasına münasibətdəki dəyişikliyin səbəbləri barədə fikirlərini bölüşən **rusiyalı siyasi analitik Mixail Neyjmakov** güman edir ki, Fransada sinaqoqlara hücumların artmasına ilk növbədə, Yaxın Şərqdə eskalasiya və bununla bağlı anti-İsrail əhval-ruhiyyəsinin regiondan xeyli kənarda artması səbəb olub.



Onun sözlərinə görə, bu cür hücumların nümayişkəranə surətdə baş verdiyi vəziyyətlərdə hücumçuların Fələstin simvollarından istifadə etməsi səbəbsiz deyil. Eyni zamanda, həm ölkənin müsəlman icmasının nümayəndələri, həm də yerli fransızlar arasında solçu radikal fəallar belə hücumların iştirakçısı olurlar: "Ümumiyyətlə, bu, Yaxın Şərqdəki eskalasiya fonunda ictimaiyyətin Fələstin tərəfinə dəstəyinin daha çox nəzərə çarpdığı bəzi Qərb ölkələrinə xas olan tendensiyanın tərkib hissəsidir. 2024-cü il iyunun 7-dən iyulun 8-dək aparılan "YouGov" araşdırmasına görə, fransalı respondentlərin 21 faizi bu münaqişədə fələstinlilərə rəğbətini ifadə edib. Halbuki, 2023-cü ilin noyabr-dekabr aylarında keçirilən sorğunun nəticələrinə görə, fələstinlilərə rəğbət ifadə edənlər 17 faiz təşkil edib. Sözsüz ki, Fələstin tərəfinə simpatiya antisemitizm və ya radikal aksiyalara hazır olmaq demək deyil. Lakin yenə də bu vəziyyət radikal fəalların hərəkətləri üçün daha əlverişli zəmin yaradır".

M.Neyjmakov hesab edir ki, radikal qüvvələrin bu cür aktivliyi Fransa hakimiyyəti üçün əlavə başağrısına çevrilir: "Birincisi, ona görə ki, sinaqoqlara hücumlar Emmanuel Makronun komandasını və daha geniş təhlükəsizlik gündəmini tənqid etmək üçün əsas yaradır. Digər məsələlərlə yanaşı, qeyd etmək lazımdır ki, sorğulara əsasən, Fransanın hazırkı prezidentinin tərəfdarları arasında ənənəvi olaraq böyük yaş qruplarının nümayəndələri əhəmiyyətli yer tuturlar. Onlar təhlükəsizlik problemlərinə, adətən, daha həssas yanaşırlar.

İkincisi, ona görə ki, Fransa cəmiyyətində İsrailə rəğbət bəsləyənlərin nisbəti də nəzərə çarpır. Yuxarıda adı çəkilən "YouGov" sorğusuna əsasən, 2024-cü ilin iyununda respondentlərin 24 faizi Yaxın Şərq münaqişəsini qiymətləndirərkən İsrailə simpatiyasını ifadə edib. Eyni zamanda, neytral mövqe tutan bir çoxlarının, hətta, Fələstin hərəkatlarına rəğbət bəsləyənlər arasında heç də hamının sinaqoqlara hücumu bəyənə bilməyəcəyi göz qabağındadır. Yəni, radikal fəallara qarşı hökumətin daha sərt tədbirləri ən azı bəzi siyasətçilərin və solçu nəşrlərin tənqidinə, sinaqoqlara yeni hücumlar isə daha mötədil seçicilərin, o cümlədən Fransa prezidentinin tərəfdarlarının narazılığına səbəb ola biləcək. Hər iki vəziyyət Yelisey sarayı üçün əlavə çətinliklər yaradır".

Onu da bildirək ki, Fransa yəhudiləri özləri də yaranmış vəziyyətdən ciddi şəkildə narazıdırlar. Bunu keçirilən rəy sorğusunun nəticələri də təsdiqləyir. Fransız İctimai Rəy İnstitutunun hələ 2022-ci ildə keçirdiyi sorğu nəticəsində məlum olmuşdu ki, Fransa yəhudilərinin 85 faizi ölkədə antisemitizmin geniş yayıldığına və artdığına inanırlar. Sorğuda iştirak edənlərin 74 faizi və müntəzəm olaraq kipa (kişilər üçün ənənəvi yəhudi baş geyimi–S.H.) taxanların 78 faizi şifahi və ya fiziki zorakılığa məruz qaldıqlarını qeyd etmişdilər.

Eyni zamanda, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyinin sorğularına əsasən, 2012-ci ildə antisemitizm hadisələri qurbanlarının yalnız 23 faizi polisə müraciət edib və 2018-ci ilə qədər bu rəqəm 18 faizə düşüb. 2018-ci ildə eyni təşkilatın sorğusu yəhudilərin 67 faizinin Fransa hökumətinin antisemitizmlə effektiv mübarizə aparmadığına inandığını bildirmişdi.

Fransa hakimiyyəti isə ölkə daxilində həm islamofobiya, həm də antisemitizm hallarını aradan qaldırmaq, tolerant cəmiyyət qurmaq istiqamətində səy göstərmək əvəzinə, Cənubi Qafqazda ara qarışdırmaq yolunu tutub. Rəsmi Parisin ölkədə geniş yayılmış etnik və dini dözümsüzlik hallarına əsas verən səbəbləri aradan qaldırmaqla məşğul olması daha faydalı olardı.

***Səxavət HƏMİD***
***XQ***

# Sülhdən başqa hər şeyin alternativi var

## *Deyəsən, Moskva "heç olmamaqdansa, gec olması yaxşıdır" prinsipinə üstünlük verir*

**Azərbaycanın sülhlə bağlı mövqeyi kifayət qədər konkret və sabitdir. Bu sabitlik fonunda müxtəlif Qərb dairələrinin oynadıqları oyunlar göz qabağındadır. Azərbaycanın bölgədə yaratdığı reallığı dəyişməyə çalışan ermənipərəst "çete"nin məqsədinin sülh gündəmini İrəvan üçün sərfəli istiqamətə yönəltmək olduğu gün kimi aydındır. Ermənistanı silahlandıran "kollektiv Qərb" bununla Azərbaycana, bir növ, müharibə mesajını verməklə, onu sülh danışıqlarında müəyyən güzəştlərə getməyə məcbur etmək barədə düşünür.**





Aydın məsələdir ki, Qərbin bu məkrli oyunu sülhün əldə olunması prosesinə mənfi təsir göstərməklə yanaşı, Moskvanı da qıcıqlandırır. Kremlin bu durumda İrəvanla Bakı arasında özünün sülh vasitəçiliyi missiyasının bərpasına yönəlik atdığı addımları təbii qəbul olunmalıdır. İlin əvvəlindən Qərbin bu müstəvidə təşkil etdiyi görüşlərin səmərəliliyi, Ermənistana hərbi-texniki və maliyyə yardımları fonunda Bakıda haqlı şübhələr yaradıb. Axı, 44 günlük müharibədən sonra sülh platformasında dominantlığı Rusiya edirdi. Amma 2022-ci ilin fevralından Moskvanın başı Ukraynaya qarşı başladığı "xüsusi hərbi əməliyyatlara" qarışdığından Qərb vasitəçilik təşəbbüsünü ələ aldı. Bu diplomatik transformasiyanı şərtləndirən əsas amillərdən biri Paşinyan komandasının Rusiyadan uzaqlaşma xəttini yeritməsi oldu. Fəqət "kollektiv Qərb"in vasitəçiliyi gözlənilən effekti vermədi və Moskva situasiyanı yenidən öz xeyrinə dəyişmək qərarına gəldi.

### Bakının öz alternativi var

"Ermənistan, Rusiya və Azərbaycan dövlət başçıları arasında 2020–2022-ci illər arasında qəbul edilmiş üçtərəfli müqavilələri şübhə altına almaq cəhdləri son dərəcə təhlükəlidir". Bu fikirləri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə deyib. "Biz tərəfləri bu problemi həll etməyə təşviq edirik, amma başa düşdüyünüz kimi, aktual məsələlər üzrə əldə edilmiş bu razılaşmalar həyata keçirilmədən bunu etmək, yəqin ki, çox çətindir".

Rusiya XİN-in sözçüsü M.Zaxarova sülh danışıqlarında ölkəsinin rolunu qabartması başadüşüləndir. Onun Ermənistan, Rusiya və Azərbaycan liderləri arasında əldə olunmuş üçtərəfli razılaşmanın (Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 2022-ci il oktyabrın 31-də imzaladıqları bəyanat nəzərdə tutulur – red.) qüvvədə qalması barədə açıqlaması da Qərbə birbaşa mesaj kimi qəbul edilməlidir.

M.Zaxarovanın erməni jurnalistin Moskvanın üçtərəfli bəyanatı etibarlı hesab edib-etmədiyi barədə sualına cavabı isə Kremlin rəsmi mövqeyi kimi başa düşülməlidir: "Bəli, biz Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında həmin dövrdə əldə olunmuş üçtərəfli razılaşmalardan çıxış edirik. 2020–2022-ci illərdə imzalanmış həmin razılaşmalar Ermənistan və Azərbaycan arasında sülhün əsasını təşkil edir. Və inanırıq ki, bunun alternativ yoxdur".

Ermənistan KİV-in nümayəndəsinə məsələnin mahiyyətini izah edən Rusiya diplomatiya idarəsinin rəsmisinin bu açıqlaması da kifayət qədər maraq doğurub: "Ermənistanda rəsmi səviyyədə kiminsə bu müqavilələrdən imtina etdiyini, yaxud imzasını geri götürdüyünü bilmirik. Əgər, İrəvan, deyək ki, bu müqavilələrin artıq qüvvədə olmadığına dair rəsmi açıqlama versə, biz buna şərh verərik. Amma hazırda belə bir şey eşitməmişik".

Zaxarovanın sözlərinə görə, həmin razılaşmalar Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması üçün bütün əsas trekləri əhatə edir. O, bu paketə sülh sazişinin mətninin hazırlanması, sərhədlərin delimitasiya və demarkasiyası, bölgədə nəqliyyat kommunikasiyalarının açılması, vətəndaş cəmiyyəti xətti ilə təmasların inkişafı kimi məsələlərin daxil olduğunu vurğulayıb.

Sülhün Moskva platformasının alternativinin olmadığını bəyan edərkən Rusiya XİN rəsmisi, yumşaq desək, yanlışlığa yol verir. Daha doğrusu, özünü reallığı görməzliyə vurur. Reallıq isə ondan ibarətdir ki, Bakı İrəvanla sülhə gəlməyin üç, dörd, beştərəfli deyil, ikitərəfli, yəni, vasitəçisiz formatına üstünlük verir. Azərbaycan rəhbərliyi bu qənaətə kənar aktorların bütün təşəbbüsləri uğursuzluğa düçar olandan sonra gəldi. Digər alternativ format kimi, Bakı "3+3", başqa sözlə, "Qafqaz evi" ideyasını hələ ilyarım bundan əvvəl irəli sürmüşdü. Astana formatı məhz bu ideyanın alternativi kimi qəbul olunub. Yəni, Bakının öz alternativi var...

### İrəvana konkret sual

"Yeri gəlmişkən, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması mövzusu Rusiya Prezidentinin Azərbaycana bu ilin avqustun 18-19-da gerçəkləşən dövlət səfəri çərçivəsində əsaslı şəkildə müzakirə olunub. Avqustun 23-də Rusiya lideri ilə Ermənistan baş naziri arasında telefon danışığında bu məsələyə toxunulub". M.Zaxarova Moskvanın bu məsələdə mövqeyini diplomatik dildə, həm də konkret formada ortaya qoydu. Azərbaycan və Ermənistan liderlərinin konstruktiv dialoqun davam etdirilməsinə sadiq olduqlarını təsdiqlədiklərini deyən Rusiya XİN rəsmisi Prezident V.Putinin ən yüksək səviyyədə üçtərəfli razılaşma əsasında iki ölkə arasında normallaşma prosesinin bütün sahələrində tərəfdaşlara lazımi yardımı göstərməyə davam etməyə hazır olduğunu vurğulayıb. Nəhayət, o, erməni jurnalisti ilə "dialoqu və ya ünsiyyəti daha məzmunlu etmək üçün", "Ermənistanda söz azadlığına hörmət mühitini nəzərə alaraq" ona bu sualı verir: – Rəsmi İrəvan üçtərəfli razılaşmaları etibarlı hesab edirmi?

M.Zaxarovanın brifinqdə nümayiş etdirdiyi mövqe, açıqladığı fikirlər "kollektiv Qərb"in sülh naminə təşəbbüslərinin iflasa uğramasından sonra Kremlin "taktiki hücumu" sayıla bilər. Burada təəccüblü heç nə yoxdur və tamamilə anlaşılan gedişdir. Əgər sülhə vasitəçilik edənlərdən bir nəticə hasil olmadısa, bu halda niyə Rusiya kənarda qalmalıdır? Əslində, bu ritorik sual Bakıdan çox İrəvana ünvanlanıb. Artıq Kreml tam açıq şəkildə bildirir ki, o, nəinki sülh danışıqlarına vasitəçilik etməyə, hətta buna platforma verməyə hazırdır.

Təxminən bir ay bundan əvvəl "iki ölkənin nümayəndə heyətinin ikitərəfli formatda işləməsi üçün rahat şəraitin yaradılmasına zəmanət" verən Kreml artıq üçtərəfli formatda sülhə dəstək olacağını vəd edir.

Yazımızın əvvəlində Rusiyanın 2020-ci ildə malik olduğu dominant mövqeyini əldən verdiyini və bunun səbəbi kimi Ukrayna müharibəsini göstərdik. Fəqət digər səbəbləri də unutmaq olmaz. Əsas səbəb isə İkinci Qarabağ müharibəsindən sonra Moskvanın daha çox Ermənistanı özünün təsir dairəsinə qaytarmaq barədə düşünməsi idi. Yəni, sülh danışıqlarının müzakirəsinin mümkünlüyünə şirnikləndirməklə yanaşı, Kreml İrəvanı, necə deyərlər, tələyə salmağa çalışırdı. Onu da nəzərə çatdıraq ki, o zaman Rusiyanın məsələyə bu cür yanaşması rəsmi Bakı tərəfindən heç də müsbət qarşılanmırdı.

Keçənə güzəşt deyərlər. Bakı bölgəyə sülhü gətirəcək istənilən vasitəçinin təşəbbüsünü alqışladığını dəfələrlə bəyan edib. Təki bu təşəbbüs təmənnasız və səmimi olsun. Rusiyaya gəldikdə isə, onun sülhə yönəlik addımlarında bəzən ermənipərəstlik meyillərini müşahidə etmişik. Azərbaycan hakimiyyəti bunun səbəbini Moskvanın danışıqlar prosesində qeyri-obyektiv mövqe tutması kimi deyil, İrəvanın Rusiyanın köməyindən imtinası ilə bağlamağa üstünlük verib. Bəs, hazırda vəziyyət əvvəlkindən fərqlidirmi? Deyə bilərik ki, indi vəziyyət əvvəlkindən də gərgindir. İrəvanın anti-Rusiya ritorikası, Qərbyönümlü xətti daha da güclənib. Buna baxmayaraq, Moskva yeni cəhd limitini xərcələməkdə tam sərbəstdir. O, məşhur rus zərb-məsəlində deyildiyi kimi, "heç olmamaqdansa, gec olması yaxşıdır" prinsipini sınaqdan çıxarır. Beləliklə, Mariya Zaxarovanın Rusiyanın sülh danışıqlarında vasitəçilik və platforma təqdimatı məsələləri özünün praktik əhəmiyyətini itirmiş kimi görünür...

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyləri**

**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq:**



– Rusiya bu vaxta qədər Ermənistanla Azərbaycan arasında sülhə hansı töhfəni verib ki, indi də bunu etsin? Elə Qarabağ məsələsi Moskvanın əvvəlcədən icad elədiyi bir problemdir. Reallıq ondan ibarətdir ki, ötən əsrin 90-cı illərində Azərbaycanın Rusiya ilə münasibətlərindəki soyuqluq münaqişənin gedişatına bilavasitə mənfi təsirini göstərib. Doğrudur, ortada başqa səbəblər də vardı. Amma bu faktdır ki, Moskvanın İrəvana o zaman silah verməsi, təbii ki, torpaqlarımızın işğalı ilə nəticələndi.

İkinci Qarabağ müharibəsində Rusiya bu işə qarışmadı və dinamika dəyişdi. Çünki Azərbaycan Prezidentinin apardığı uğurlu xarici siyasətin sayəsində Rusiya ilə münasibətlərimiz normal məcraya yönəlmişdi. Əlbəttə, bunun müəyyən rolu oldu. İntəhası, 44 günlük müharibədə də Rusiya Ermənistana silah göndərirdi. Ermənilər Qarabağın işğaldan azad olunmasında Moskvanı günahlandırırlar. Fikrimizcə, ordumuzun qısa müddətdə torpaqlarımızı işğaldan azad edəcəyini Rusiya rəhbərliyi gözləmirdi. Yalnız müharibənin sonlarında raketlərin Azərbaycan ərazisində partlamasının hamımız şahidi olduq. Artıq gec idi.

Bəli, bu gün Azərbaycan–Rusiya münasibətləri xeyli yaxşılaşıb. Vladimir Putinin Bakıya səfərini buna nümunə olaraq göstərmək olar. Onu da bilirik ki, bölgədə Qərb, ABŞ və Rusiya yenə öz oyunlarını oynayırlar. Hərəsinin öz məqsədi var. Bizim əsas məqsədimiz isə üçtərəfli bəyanatda yazıldığı kimi, Azərbaycanla Naxçıvan arasında maneəsiz keçidin olmasıdır. Bu məsələ sülh sazişi çərçivəsində müzakirə olunmasa da, bunun gündəlikdən çıxarılmasından söhbət gedə bilməz.

**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı:**



– Vladimir Putin Bakıda İlham Əliyevə söyləmişdi ki, o Moskvaya qayıtdıqdan sonra Ermənistan baş naziri Nikol Paşinyanla telefonla danışacaq və Bakı görüşünün təfərrüatlarını onun diqqətinə çatdıracaq. Aydındır ki, bunu diplomatik etiket tələb edir. Ancaq Putin bununla həm də onu deməyə çalışmışdı ki, onun Paşinyandan xoşu gəlməsə də, Azərbaycanla Ermənistan arasında balansı saxlayacaq.

Putin Moskvanın Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün fəaliyyət göstərəcəyini desə də, buna Bakının və İrəvanın ehtiyacı yoxdur. Nikol Paşinyan telefon danışığında Kremlin vasitəçilik təklifinə müsbət yanaşmayıb. Bakı ilə İrəvanın vasitəçiyə ehtiyacı yoxdur, onların arasında danışıqlar vasitəçi olmadan davam edir, hökumətlərarası komissiya sərhəddə görüşür, xarici işlər nazirləri sülh sazişinin mətnini müzakirə edirlər. Üstəlik, Bakı və İrəvan Zəngəzur dəhlizi ilə bağlı bəndin sülh sazişinin mətnindən çıxarılmasına razılaşıblar. Bu, o deməkdir ki, Rusiyanın da maraqlı olduğu dəhlizin açılması yaxın müddətdə reallaşmayacaq

Putin anlayır ki, Ukrayna ilə müharibə fonunda və Rusiya üçün indiki ağır vəziyyətdə Cənubi Qafqazdakı maraqlarını qorumaq çətindir, Kreml Bakı ilə İrəvan arasında vasitəçi ola bilmir, sülh sazişinin mətninin hazırlanmasında və sərhəd danışıqlarında iştirak imkanlarını itirib. Kremlin yeganə yapışmaq istədiyi mövzu Zəngəzur dəhlizidir. Rusiya həm bu dəhlizdən istifadə, həm də dəhlizə nəzarət etmək istəyir və bu zaman 2020-ci il 10 noyabr üçtərəfli Bəyanata istinad edir. Putinin telefon zəngləri durumu dəyişə bilmir.

# Ermənistanda "konstitusiya dəyişikliyi" isteriyası

(əvvəli 1-ci səhifədə)

Onu da bildirək ki, Azərbaycan tərəfindən irəli sürülmüş konstitusiya dəyişikliyi şərti ilə Ermənistanın baş naziri Nikol Paşinyanın məsələ barədə söz açması, demək olar, eyni vaxta təsadüf etmişdi. Paşinyan bu ilin mayında mövzunu açmış və ölkənin əsas qanununa dəyişikliyi özünə xas şəkildə izah etmişdi. O, ən popular izahını Ermənistanın İctimai televiziyasının efirindən vermişdi. Təxminən belə: Biz yol ilə gedirik və yolu gedib başa çatdırmalıyıq. Ancaq əynimizdə nənəmizin bizə tikdiyi, miras kimi saxladığı qırmızı paltar var. Yolu qırmızı rəngə həssas olan öküzlər kəsib. Ona görə nənəmizin tikdiyi paltarı əynimizdən çıxarıb onu eksponat kimi muzeyə qoymalıyıq ki, mənzil başına çata bilək.

Əlbəttə, Paşinyanın, belə demək mümkünsə, öküz məntiqində hədəfin kim olduğu bildirilməsə də, bir şey qətidir ki, dünya üzrə mühüm dövlət sənədində başqa ölkəyə qarşı ərazi iddiasının yer aldığı tək ölkə Ermənistanın özüdür. Bu, heç öküzlük də deyil, nədirsə izaholunmaz vəhşilikdir. Yaxşı olardı ki, Nikol məsələ barədə açıq danışardı. Hərçənd, onu hazırkı başıpozuq erməni cəmiyyətində anlayanın olacağına şübhə ilə yanaşırıq. Həm də ona görə ki, Nikol öküz olmasa da, mahiyyətcə tülkü xislətlidir.

Bəli, hazırda Ermənistanın ədliyyə naziri Q.Minasyanın dedikləri də tülkülükdən başqa bir şey deyil. Hiss olunur ki, rəsmi İrəvan konstitusiya dəyişikliyi ilə bağlı məsələni uzadır və nəticə etibarilə sülhdən yayınır. Burada hiyləgərlik motivi ondadır ki, erməni iqtidarı, mahiyyətcə, Azərbaycanın tələblərinin yerinə yetirilməsinin vacibliyini anlayır, amma boyun qaçırır. Mövcud trayektoriyada vaxtın uzadılması isə Ermənistana sərfəli beynəlxalq şəraitin yetişməsi üçündür.



Heç şübhəsiz, Paşinyan bir qədər çətinə düşəndə bildirəcək ki, ölkəsi Bakının şərtini yerinə yetirmək istəyirdi. Amma şərtə əməl etmək belə olmur. Çünki hələ Minasyanın bildirdiyi o demək deyil ki, 2027-ci ildə ölkədə konstitusiya dəyişikliyi ilə bağlı referendum olacaq. Yəni, olmaya da bilər.

Digər tərəfdən, məsələ bir qədər fərqli qoyulur. Söhbət konstitusiya dəyişikliyindən deyil, yeni konstitusiyanın qəbulundan gedir. Bu, daxili başıpozuq auditoriyaya hesablanmış gedişdir. Guya ki, Azərbaycanın tələbi yerinə yetirilmir, hansısa daha böyük zərurət həyata keçirilir. Aydındır ki, başlıca məqam əsas qanunun istinad etdiyi mənfur müddəaların aradan qaldırılması olmalıdır. Hərçənd, nazir Minasyan işğalçı mahiyyətli İstiqlaliyyət Bəyannaməsinə istinaddan uzaqlaşmağın müzakirə predmeti olmadığını vurğulayır. Elə isə referendum nə üçündür?

O da tam aydındır ki, Ermənistan rəhbərliyi səmimi deyil. Paşinyan iqtidarı Azərbaycanla sülhdə maraqlı olmadığı və bunu ən müxtəlif vasitələrlə nümayiş etdirdiyi kimi, konstitusiya dəyişikliyi müstəvisindəki imitasiyası ilə də eyni yolu tutmaqdadır. Əlbəttə, biz məsələnin heç də asan olmadığını yaxşı anlayırıq. Minasyanın bildirdiyi kimi, ictimai müzakirələr filan lazımdır. Ancaq hər bir halda proses tezləşməlidir. Çünki hazırkı durum Ermənistan üçün xoşagəlməz perspektiv formalaşdırmır.

Azərbaycanın tələbinə gəldikdə isə bildirək ki, bu, heç bir halda, başqa dövlətin işinə qarışmaq deyil. Biz haqqımız olanı istəyirik. Ölkəmizə təminat lazımdır. Söhbət sülh təminatından gedir. Nəzərə alsaq ki, konstitusiya dəyişikliyi referendum, yəni ümumxalq səsverməsi ilə reallaşmalı olan prosesdir, deməli, təminat erməni xalqının iradəsinin məhsulu qismində meydana çıxmalıdır. Xalq işğalçılıq niyyətinə düşməyəcəyini, bu mənfur əməldən imtina məramını bəyan etməlidir.

Əlbəttə, onu da yaxşı anlayırıq ki, Ermənistan konstutisiyasına dəyişiklik, yaxud ümumən ölkənin əsas qanununun dəyişdirilməsi hələ tam təminat deyil. Yəni, müvafiq sənəd olmadan da ermənilərin işğalçılıq niyyəti güdmələri mümkündür. Nəzərə alaq ki, vaxtilə mövcud olmuş Ermənistan SSR-in ana qanununda Azərbaycana qarşı ərazi iddiası əksini tapmasa da, biz keçmiş SSRİ zamanında respublikamıza qarşı ərazi iddialarının olduğunu görmüşdük. Erməni millətçiləri ötən əsrin 80-ci illərinin sonunda Qarabağın müxtəlif yerlərində təxribatlar törədib dinc azərbaycanlıları qarət edəndə, qətlə yetirəndə, eləcə də digər zərərlər vuranda hansısa sənədə uyğun davranmır, içlərindəki zəhəri töküdülər.

Sözümüz ondadır ki, "erməni zəhərini" bir referendumun nəticəsi aradan qaldıra bilməz. Ancaq, hər bir halda, Ermənistan cəmiyyəti ortaya xoş niyyət qoymalıdır. Qonşularla normal keçinəcəyinə dair iradə nümayiş etdirməlidir. Bunu etməlidir ki, inamımız yaransın. Ancaq Q.Minasyanın haqqında söz açdığımız açıqlamasından sonra erməni cəmiyyətinin müəyyən kəsimlərində baş qaldırmış mənfi ritorika onu deməyə əsas verir ki, Ermənistanda konstitusiya dəyişikliyi məsələsinə qarşı çıxan qüvvələrin yaratdıqları isterik ab-hava mövcuddur. Rəsmi İrəvan ya bu ab-havanı yenmək istəmir, ya da gücü çatmır. Hesab edirik ki, birinci variant daha doğrudur.

***Ə.RÜSTƏMOV***
***XQ***



# Milli Məclisə seçkilərə 1 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Sabah “sükut günü”dür

**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar avqustun 31-i Azərbaycanda “sükut günü”dür. Həmin gün seçkiqabağı təşviqat aparıla bilməz.**



Seçki Məcəlləsinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən seçkiqabağı təşviqatın aparılmasına səsvermə gününə 23 gün qalmış başlanmalı və səsverməyə 24 saat qalmış dayandırılmalıdır.

Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar seçkiqabağı təşviqat prosesi 2024-cü il avqustun 9-da başlanıb və bu proses avqustun 31-i saat 8:00-da dayandırılır. Həmin günə “sükut günü” də deyirlər.

Qeyd edək ki, sentyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə əlaqədar seçki məntəqələri səhər saat 8-də açılacaq və səsvermə 19:00-a qədər davam edəcək. Milli Məclisə 125 deputat mandatı uğrunda 991 namizəd mübarizə aparacaq.

## Zəfər təntənəli seçkilər

**“30 il sonra müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edəcək parlament seçkilərinin keçirilməsi qürurvericidir. Xoşbəxt insanlarıq ki, Azərbaycanın həyatında əhəmiyyətli rol oynayan belə mühüm siyasi hadisələrin, zəfərlərin şahidi oluruq. Əminəm ki, parlament seçkiləri demokratik inkişaf tariximizə yeni uğur səhifəsini yazacaq”.**



Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında tanınmış bəstəkar, Xalq artisti Faiq Sücəddinov deyib.

Bəstəkar qeyd edib ki, ölkəmizin digər ərazilərində olduğu kimi, işğaldan azad edilmiş torpaqlarımızda parlament seçkilərinin keçirilməsi bütün xalqımızı sevindirir: “Arzularımız çin oldu. 30 il həsrətini çəkdiyimiz torpaqlarda bu gün üçrəngli Bayrağımız dalğalanır. Türk dünyasının, İslam dünyasının mədəniyyət paytaxtı, Azərbaycan musiqisinin məbədi olan Şuşada, qədim yurd yerlərimiz Xankəndidə, Ağdamda, Kəlbəcərdə, Füzulidə, eləcə də işğaldan azad olunmuş digər ərazilərdə elm, mədəniyyət, dövlət əhəmiyyətli tədbirlərin keçirilməsini necə həsrətlə gözləmişdik... Bu, böyük sevincdir, böyük qürurdur.”

## Beynəlxalq müşahidəçilər Alıbəylidə




**“119 saylı Ağdam seçki dairəsinin 21 saylı seçki məntəqəsi Alıbəyli kənd tam orta məktəbin binasında yerləşir. Məntəqədə növbədənkənar parlament seçkilərinin qanunvericiliyin tələblərinə uyğun şəkildə keçirilməsi üçün bütün lazımi şərait yaradılıb. Seçicilərə səsvermənin tarixi, vaxtı və yeri barədə bildirişlər paylanılıb. Məntəqə, həmçinin lazımi texniki vasitələrlə təmin edilib. Siyahıya görə, məntəqə üzrə 1.388 seçici qeydə alınıb. İlk dəfə səsvermə hüququndan istifadə edəcək gənclərin sayı 14 nəfərdir”.**

Bu barədə “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 119 saylı Ağdam DSK 21 saylı məntəqə seçki komissiyasının sədri Tünzalə Vəlimməmmədova danışıb.

Sədr sözlərinə onu da əlavə edib ki, beynəlxalq müşahidəçilər 21 saylı seçki məntəqəsinə baş çəkiblər.

## “Sinxua” Azərbaycanda parlament seçkiləri haqqında

**Çinin məşhur “Sinxua” agentliyi Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərinə hazırlığın gedişi barədə material dərc edib.**

“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, “Azərbaycan sentyabrın 1-də keçiriləcək parlament seçkilərinə hazırlaşır” sərlövhəli yazıda qeyd edilib ki, parlament seçkilərinin növbədənkənar keçirilməsinə səbəb bu ilin noyabrında




Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinə qərar verilməsi olub.

Məqalədə, həmçinin Azərbaycan parlamentinin tarixi, onun strukturunun formalaşması, seçkiləri izləyəcək yerli müşahidəçilər, beynəlxalq təşkilatlar barədə məlumat verilib. Müəlliflər hazırda seçkiqabağı təşviqat aparıldığını, avqustun 31-də isə “sükut günü” olacağını oxucuların diqqətinə çatdırıblar.

## Şikayətlərə əvvəlcə dairə seçki komissiyasında baxılacaq



**“Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar təşviqat qaydalarının pozulması ilə bağlı müraciət və şikayətlərə əvvəlcə dairə seçki komissiyasında baxılmalıdır”.**

“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov qurumun iclasında deyib. O qeyd edib ki, əgər dairənin qərarından narazılıq olarsa, o zaman MSK-ya müraciət edilə bilər: “Lakin hazırda belə müraciətlər birbaşa MSK-ya yönləndirilir. Halbuki onlara əvvəlcə dairə seçki komissiyalarında baxılmalıdır”.

## Əsas tələb aşkarlıq, şəffaflıq, ədalətlilikdir

**“Seçki qanunvericiliyinin düzgün tətbiq edilməsi, aşkarlıq, şəffaflıq, ədalətlilik kimi mühüm prinsiplərin qorunması seçkilərin demokratik keçirildiyindən xəbər verir. Vətəndaşlarımızın belə bir seçki mühitində fəal iştirak etməsi isə bu seçkilərin əhəmiyyətini daha da artırır”.**

Bu sözləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Bakı Dövlət Universitetinin professoru, hüquq elmləri doktoru Əfsər Sadıqov deyib.

O bildirib ki, budəfəki parlament seçkilərinin önəmli bir tərəfi onun həm də işğaldan azad edilmiş regionları əhatə etməsidir.



## İlkin nəticələr operativ elan olunacaq



**“Növbədənkənar parlament seçkiləri ilə bağlı ilkin nəticələrin operativ elan olunmasını təmin edəcəyik”. “Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.**

MSK sədri qeyd edib ki, indiyədək bütün seçkilərdə ilkin nəticələrin operativ elan olunması təmin edilib. “Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində də bu operativlik qorunacaq. İlkin nəticələrin sentyabrın 1-i gecə çatdırılmasını təmin edəcəyik. İki gün ərzində isə bizə dairələrdən protokollar veriləcək. Bu isə yekun nəticələr hesab olunacaq”, – deyə Məzahir Pənahov əlavə edib.

# Seçki xəbərləri

### Seçki mədəniyyəti siyasi yetkinlikdir



“Azərbaycan dünyanın siyasi və mədəni mərkəzlərindən birinə çevrilir. Ölkəmiz bütün sahələrdə, o cümlədən demokratiya sahəsində də inkişaf edir. Qarşıdan gələn parlament seçkiləri də məhz bunun sübutudur. Çünki seçkilərə hazırlıq prosesi yüksək səviyyədə keçir. Seçki mədəniyyəti bütün xalqlarda onun yetkinliyini və üstünlüyünü göstərir”. Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında ABŞ-da yaşayan azərbaycanlı ictimai-siyasi fəal Cavad Abbasi bildirib.



### 1200 müşahidəçi qeydiyyatdan keçib

“32 saylı Suraxanı üçüncü seçki dairəsində parlament seçkilərinə hazırlıq prosesi MSK-nın Təqvim planına uyğun qaydada davam edir”. Bu barədə “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 32 saylı Suraxanı üçüncü DSK-nın sədri Firudin Mirzəyev deyib. O bildirib ki, dairə üzrə 39 seçki məntəqəsi mövcuddur: “Bütün məntəqələrdə vətəndaşların rahat şəkildə səs verməsi üçün zəruri şərait yaradılıb. Dairədə 1200 müşahidəçi qeyda alınıb, seçicilərin sayı 50 mindən çoxdur”.

### İlk dəfə səs verənlərə xüsusi kart veriləcək



Milli Məclisə növbədənkənar seçkilərdə ilk dəfə səs verən seçicilər üçün xüsusi seçici kartları hazırlanıb. “Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, bu barədə MSK sədrinin müavini Rövzət Qasımov məlumat verib. O bildirib ki, ilk dəfə səs verən seçicilərdən 374-ü sentyabrın 1-də doğum gününü qeyd edəcək: “Onlara xüsusi təbrik kartları veriləcək”.

### Parlament seçkiləri ölkəni əhatə edəcək



“Azərbaycanda sentyabrın 1-ə təyin edilən parlament seçkiləri yüksək ovqatda keçiriləcək. Çünki bu seçkilər tarixdə ilk dəfə olaraq Azərbaycan Respublikasının bütün bölgələrində baş tutacaq”. Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında İzmir Azərbaycan Dərnəyi İdarə Heyətinin sədri Pərviz Altay deyib.

*Səhifəni hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# Vətən müharibəsinin fəlsəfəsi

VI MƏQALƏ

**Bütün müharibələrdə qələbə əvvəlcə insan şüurunda qazanılır.**

**Janna d`ARK**

## Şəhidlik – ölümsüzlük zirvəsi

Burada “şəhid” sözünün semantik mənasına qısa nəzər salmaq lazım gəlir. Terminin mənbəyinin ərəbcə “şahid”dən olduğunu yazırlar. Onun dini tərifi belədir: “Şəhid – yüksək amal, məslək, əqidə, yurd, Vətən, din və ya inanc uğrunda ölən, canını fəda edən şəxs. Şəhid olma hadisəsinə "şəhadət" deyilir”.

Deməli, “şəhid” sözü semantik olaraq müharibədə kafirlərə qarşı mübarizədə həyatını itirmiş sadiq müsəlmanı ifadə edir. Burada şəhidin dinini, Vətənini, şərəfini, ailəsini qoruyanda özünü qurban verməsi nəzərdə tutulur. Ən-Nəvavi yazır: “Allah özü şahidlik edir ki, şəhidlər cənnətdə olacaqlar”.

Qurani-Kərimin “Əl-Bəqərə” və “Əl-İmran” surələrində şəhidliklə bağlı iki ayə var. Onların məzmunu belədir:

“Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz” (Əl-Bəqərə surəsi, 154-cü ayə).

"Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əslhəqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur" (Əl-İmran surəsi, 169-cu ayə).

Bu istiqamətdə dərinliklərə baş vurmayaq. Şəhidlikdə iki məqam yuxarıdakı dini izahlardan aydın görünür: Birincisi, Vətən, din, ailə uğrunda insanın özünü qurban verməyə hazır olması, ikincisi, bu yolda canını verənlər, əslində, ölümsüzdürlər və hətta, “yenidən şəhid olmaq üçün can atarlar” (Məhəmməd Peyğəmbər s.ə.s.).

Bu məqamları ümumiləşdirsək, şəhidliyi ölümsüzlüyə aparan yol kimi fəlsəfi təsəvvür edə bilərik. Burada onu vurğulayaq ki, fəlsəfi təsəvvür artıq məntiq tələb edir, ona görə də dini izahdan fərqlənə bilər. Belə alınır ki, Vətəni qorumağa xidmət edən savaşda həyatını itirən insan, əslində, ölümsüzlüyə qovuşmuş olur. Bu mənada onun davranışı müqəddəsdir. Şəhidin adı, amalı və xatirəsi də müqəddəsdir. Bu müqəddəslik başqa dəyərlərdən fəlsəfi olaraq fərqlənir.

Şəhidin adının və xatirəsinin müqəddəsliyi onun ailə, din, Vətən uğrunda özünü qurban verməsindən qaynaqlanır. Burada başlıca motivədici funksiyanı insanın (Vətən müharibəsində əsgərin) daxili fədakarlığa can atması keyfiyyəti yerinə yetirir. Yəni şəhidlik əmr və ya göstərişlə olmur – insan özü daxilən buna can atır! Bu, çox mühüm məqamdır.

Məsələ Vətən müharibəsinin fəlsəfəsi baxımından onunla əlaqəlidir ki, fərdin daxili fədakarlığa can atması toplum miqyasında mütəşəkkiliyi formalaşdıran və onu mənəvi olaraq stimullaşdıran dəyər rolunu oynayır. Buradan Azərbaycan cəmiyyətində Vətən uğrunda savaşda şəhidliyin bütövlükdə toplumun özünütəşkilinə, mütəşəkkiliyinə və ortaq dəyərlərə sahib olmasında mühüm rol oynadığı qənaətini ala bilərik.



Başqa sözlə ifadə etsək, şəhidlik feili olaraq fərdi xarakterli qərar-davranışdırsa, onun birbaşa cəmiyyət miqyasında özünütəşkilə, mütəşəkkil davranış modellərinə yiyələnməkdə ciddi təsiri olur. Bu da öz növbəsində Azərbaycan cəmiyyətinin özünüyaratması prosesində fərdi fədakarlığın kollektiv davranışa transformasiyasının özünəməxsusluğu deməkdir.

Bu özəlliyin başlıca fəlsəfi mənası ondan ibarətdir ki, Vətən, din və ailə qoruyucusu özünü cismən qurban verir ki, mənən bütövlükdə toplumu ölümsüz etsin! II Qarabağ savaşının Vətən müharibəsi olaraq başlıca özəlliklərindən biri kimi bu keyfiyyəti hesab edirik.

Beləliklə, şəhidin ölümsüzlüyünün bu dünyada təsdiqi, uğrunda qurban getdiyi ailəsi, dini, Vətəni və dövlətini ölümsüz etməklə, onların əbədi var olmalarına xidmət göstərməklə sıx bağlıdır! Eyni zamanda, şəhidliyin fərdlərin toplumun özünüyaratması üçün hazır olduqları daxili fədakarlığın təsdiqlərindən biri kimi qiymətli olduğunu görürük.

Azərbaycanlı mentalitetində şəhidlik ölümsüzlüyün rəmzi kimi maraqlı fenomendir. Burada şəhidolma anında təhtəlşüurla şüurun iştirak nisbəti, bizcə, xüsusi araşdırılmalıdır. Çünki yaşamaqdan ölümə kritik situasiyada transfer etmək mürəkkəb psixoloji aktdır. İnsan kritik situasiyada bu qərarı şüurlu və ya qeyri-şüuri verdiyinin fəlsəfi dərki asan deyildir. Görünür, bu kimi suallara cavab axtarışları şəhidliyin astanasından dönmüş qaziliyin dərkində aparıla bilər.

Bütün bunların fonunda şəhidliyin fəlsəfəsində başqa bir aspektin də üzərində dayanmaq olar. Məsələ ondan ibarətdir ki, şəhid olmaq həm də bu dünyadan ayrılmaq deməkdir. Uğrunda qurban getdiyin ailədən, sevdiklərindən, yurddan, Vətəndən cismən əbədi ayrılmaq deməkdir.

Bu dünyada qalan sevdiyin insanların qəlbində rəmzə, xatirəyə, arzuya, qəhrəmanlıq xəyalına çevrilmək deməkdir. Həmin anlamda şəhidlik, həm də bu həyatda ruhlarda ruh kimi, qəlblərdə döyüntü kimi, könüllərdə məsum xəyali sevgi kimi, ürəklərdə vətənsevərliyə ataş kimi əbədi qalmaq deməkdir. Eyni zamanda, kimlərinsə qəlbində qubardır, həsrətdir, göz yaşıdır...

Nəhayət, şəhidlik ailəsevərliyin, yurdsevərliyin, vətənsevərliyin, fədakarlığın, dinə sədaqətin Allaha salamıdır!

Yeri gəlmişkən, Azərbaycanda şəhidliyin obrazlı poetik ifadələri az deyildir. Rüstəm Behrudinin yaradıcılığında bunun müxtəlif məcazi ifadələrinə rast gəlinir. R.Behrudi bu dünyadan əbədi qaranlığın dərinliklərində qərq olaraq, o dünyada təmizlənib, yenidən millətinin qulluğuna qayıtmağı poetik təsvir etmişdir. Bu, şəhidliyin maraqlı surətdə yenidən dirilməsi kimi də təsəvvür edilə bilər. Çünki hüdudsuz əngəlliklərin sonsuzluğuna qərq olmaq özlüyündə o zaman şəhidlik olur ki, bunu Vətən, millət naminə edəsən. Şair onu məhz Vətən, millət naminə “qayıdış arzusu” kimi ifadə edir. Əbədiyyətə baş vurur ki, bu dünyada milləti üçün yararlı olsun! Yəni şəhid olur ki, sonradan dirilib yenidən şəhid ola bilsin! Bu mənada R.Behrudiyə görə, şəhid özünü qaranlıq dünyada həlak etmir – Vətənə faydalı olmaq naminə rəmzi mənada özünü qurban verir!

Vətən müharibəsində şəhidlik isə bu dünyada fiziki olaraq, cismən özünü qurban verməklə şücaətidir! Bu, bir tərbiyə, həyat seçimidir! Həyata baxış və onun çətinliklərinə reaksiyadır! II Qarabağ savaşını bu mənalarda şəhidliyin təntənəsi adlandıra bilərik. Minlərlə azərbaycanlı gənc ailəsi, yurdu, Vətəni, şərəfi, namusu naminə “uf” demədən canından keçdi!

Onların hər birinin qəhrəman sinəsində qürur duyduğumuz bir nişanələri vardır. O, Şuşada şəhid qanından yoğrulmuş daş üzərinə sancılmış şanlı Azərbaycan Bayrağıdır! O bayraq şəhidliyin və müstəqilliyin əbədi rəmzidir! Kökündə şəhidlərimizin al qanı, özündə kimliyimizin üç rəngi ilə əbədi dalğalanacaq! Şəhidlərin ölməzliyi Bayrağımızı da əbədi etmişdir! Bütün bunların tarixi rəmzi liderimizin məşhur kəlamlarında yaddaşlara həkk olunmuşdur: “Qarabağ Azərbaycandır!”, “Sən azadsan, Şuşa!”

## Qazilik fəlsəfəsi

Alimlər “qazi” sözünün ərəbcədəki “qəzənfər, qəz, qəzavət” sözləri ilə eyni kökdən olduğunu yazırlar. Mənası “qalib gələn, müzəffər olan” deməkdir. Yəni qazi din, ailə, yurd, Vətən uğrunda savaşan və qalib gələn insandır. Qazi bu mənada mübarizə aparan, haqsıza, ədalətsizə, təcavüzkara qaşı savaşan əsgərdir.

Qazinin şəhiddən fərqi cismən sağ qalmasıdır (onun yaralanıb, yaralanmamasının bu anlamda mənası yoxdur). Qazilik savaşda zərər görüb-görməməklə deyil, nəyin uğrunda savaşmaqla müəyyən edilir. İnsan azadlığı, dövlətin müstəqilliyi, ailə, yurd, Vətənin qorunması, dini uğrunda savaşırsa, qazidir. Deməli, Vətən müharibəsində qazi müzəffər olan, qalib gələn savaşçıdır! Onun fəlsəfəsinə bu mənadan yanaşmağa çalışacağıq.

Qalib əsgər Vətən müharibəsinin yaddaşı, dəyəri və rəmzidir. Qazi xatirəsinə döyüş səhnələri daşıyan və başqalarına danışan müharibə iştirakçısıdır. Qaziliyin ruhunda qəvi düşmənlə mübarizənin əzmi yaşayır. Buna görə qazilərlə görüş çox vacibdir. İnsanlar qazinin gördüyü, iştirak etdiyi döyüş anlarını təkrar özündə yaşayır. Bununla qaziliyin müharibədən sonra cəmiyyətlə baş vermiş savaş arasında mənəvi, psixoloji, informasiya “mediatoru” olması kimi əhəmiyyətli funksiyasını aydınlaşdırmaq olar.

Bunun təsiri istənilən təbliğatdan üstündür. Çünki ən yaxşı təbliğat şəxsi nümunədir. Bir epizodu xatırlamaq istərdik. AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda Vətən müharibəsinin bir qazisi ilə görüş keçirilirdi. Qazi müharibədən belə bir səhnə danışdı: “Səngərdə düşmən bizi çox sıxışdırmışdı. Aramsız atəş açırdılar. Mən dözmədim və ayağa qalxmaq istəyib atəş açmağa çalışdım. Komandirim çiynimdən basıb aşağı oturtdu və dedi; “Sən ailəlisən, övladların var. Qalxma, mən subayam. Bunu deyib səngərdə ayağa qalxdı və aramsız atəş açdı. Bir qədər sonra ayağından yaralandı”.

Qazinin bu canlı söhbəti Vətən uğrunda savaşanların gözəl keyfiyyətlərini əyani olaraq fakt üzrə ifadə edir. İki azərbaycanlı döyüşçünün kritik anda bir-birinə dəstək olmasının fəlsəfi-psixoloji məqamını aydınca ortaya qoyur.

Azərbaycanın Vətən uğrunda savaşçısı üçün döyüş yoldaşının mənəvi-əxlaqi və ailə dəyərləri müqəddəsdir. Vətən Müharibəsinin əsgəri döyüş yoldaşının ailəsini özünün canından üstün tutur. Şəhid olmağa hazırdır ki, ailə və övladlar sağ qalsın. Onlar sağ qalsın ki, Vətən yaşasın! Millət sağ olsun! Bu, azərbaycanlı passionarlığının əsrlərdən gələn nümunəsidir. Azərbaycan əsgəri döyüş yoldaşını xilas etmək üçün özünü qurban verə bilər.

Bu, mentalitetimizdə o qədər dərinə keçmişdir ki, hətta azərbaycanlı xidməti zamanı başqalarına da eyni münasibət göstərir. Bunun konkret nümunələrindən biri qarabağlı əsgər (təsadüf, yoxsa tarixin “gizli əli”?) Rahib Məmmədovun Gürcüstanda sel daşqını zamanı tanımadığı gürcüləri xilas etməsidir.

Rahib əsgər kimi ilk xilasetmə əməliyyatından sonra ikinci dəfə suya baş vurmaya da bilərdi. Və ya yanındakı gürcü və rus əsgərlərin hərəkət etməsini istərdi. Lakin o, türk oğlu kimi çətin vəziyyətdə olan Allah bəndələrini ölümün pəncəsindən qurtarmaq üçün özünü fəda etməyə, qurban getməyə üstünlük verdi.

Bunun doğru və ya yanlış olduğunu müzakirə etmək başqa məsələdir. Və bu kimi müzakirələrin azərbaycanlı mentalitetini dəyişə biləcəyinə ümid etmək də absurddur – Rahib ikincə dəfə də həyata gəlsəydi, eyni cür davranardı. Əsas məsələ ondan ibarətdir ki, əsrlərin sınağı azərbaycanlı mentalitetində qaziliklə şəhidliyi bir “almanın iki üzü” kimi birləşdirmişdir. Azərbaycanlı qazilikdən şəhidliyə çox asanlıqa keçə bilir!

Bəlkə də bu maraqlı transformasiya Vətən müharibəsində qaziliyin fəlsəfəsinin mərkəzi dəyərini təşkil edir. Bu mənada qazilər bu dünyada şəhidlərin ruhunu öz canında daşıyan və onunla həmişə qürurlanan “canlı şəhidlərdir”! Qazilər şəhidlərimizin bizə salamıdır! Əleyküməssalam!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Türküstanı gəzə-gəzə...**

# Surxandəryanın sirli keçmişi – Kampırtəpə, Zurmala və Ayritam

*III yazı*

**İtmiş şəhər – Kampırtəpə Termezin 30 kilometrliyində, Amudərya çayının sahilində yerləşir. 2018-ci ildə arxeoloq alimlər sübut ediblər ki, Makedoniyalı İskəndərin iqamətgahı, qədim Oksian İskəndəriyyəsi şəhəri məhz bu torpaqlarda mövcud olub. Qazıntılar nəticəsində böyük sərkərdənin bu yerlərə gəlişini sübut edən çox sayda eksponat aşkar edilib.**

Kampırtəpə xəndəklərlə əhatə olunan qaladan və qübbəli qala divarlarının içərisində yerləşən “Aşağı şəhər”dən ibarətdir. Bu qədim qalada hələ eramızdan əvvəl IV əsrin sonlarında insanlar məskən salıblar. “Aşağı şəhər” isə eramızın birinci əsrində salınıb.Vahid plan əsasında tikilən “Aşağı şəhər” mərkəzi küçə vasitəsilə şərq və şimal hissələrə ayrılıb. Buradakı 2–5 otaqlı kiçik evlərdə ocaqlar və taxıl saxlamaq üçün qablar tapılıb. Tapıntılar arasında 1000-dən çox sikkə, üzərində hazırlandığı tarix yazılan saxsı qablar, bürünc, gümüş və sümükdən düzəldilmiş bəzək əşyaları, yunan dilində yazılar, kxaroştxi dilində qarağac qabığı üzərində nadir əlyazmalar var. İncə papirus üzərində qara tuşla kursivlə yazılan Baktriya əlyazmaları isə Orta Asiyada ən qədim yazı növü hesab edilir.

Kampırtəpədə Buddanın qırmızı gildən nadir heykəli də aşkar edilib. Bardaş quraraq oturan Budda əllərini ayaqlarının üstünə qoyub. Uzunsov qulaqcıqları olan Buddanın saçları arxadan yığılıb, boynunda qrivna adlanan boyunbağı var.





Kampırtəpədə müxtəlif mədəniyyətlər və dinlər kəsişib. Bu torpaqlarda zərdüştlər, buddistlər, qədim yunan allahlarına sitayiş edən insanlar yaşayıblar. Yeni eranın II əsrinin ortalarında Amudərya çayının səviyyəsi yüksəldikdən sonra insanlar buranı tərk ediblər.

Kampırtəpə antik şəhəri UNESCO-nun mədəni irs abidələri siyahısına daxil edilib.

Köhnə Termez xərabələrinin şimal-şərq hissəsində buddizmin rəmzi olan 12 metr hündürlüyündə Zurmala buddist qalası ucalır. Qala eramızın I–II əsrlərində Kuşan səltənəti dövründə tikilib. O zaman Orta Asiya regionunda buddizm geniş yayılmışdı.

Zurmala qalası uzun illər ərzində formasını dəyişib palçıq təpəyə çevrilsə də onun buddist tikilisi olduğu müəyyən edilib. Qala çiy kvadrat kərpicdən inşa olunub. Kərpiclərin üzərində düz xətt və iki oyuq şəklində damğa var. Belə kərpiclər Baktriyada yalnız Kuşan səltənəti dövrünə aiddir. Tikinti zamanı bir milyon 200 min kərpicdən istifadə olunub.

Min illər bundan əvvəl Zurmala tipli qalalar regionda yaşayan əhali üçün böyük əhəmiyyət kəsb edib. Orta və Cənub–Şərqi Asiyada tapılan bu cür qalalar Buddanın ölümünü və onun dəfn olunduğu yeri simvolizə edir. Qalanın təpəsindəki xüsusi kamerada “Allahın evi” adlanan kub formasındakı qutuda Buddanın geyimləri, onu əks etdirən fiqurlar, qiymətli metallar və



daşlar, Allahın qüdrətinin rəmzi olan taxıl məhsulları saxlanılıb.

Zurmalada aparılan qazıntılar göstərib ki, ilk əvvəl o, ağ daş lövhələrlə örtülü özül üzərində durarmuş. Qalanın özü isə diametri 14,5 metr olan silindrşəkilli qüllə formasında olub. Çiy kərpicdən tikilən qüllənin “şərəf çətirləri” formasındakı qübbəsində buddizm dövrünə aid mətnlər, Budda fiqurları mühafizə edilib. “Şərəf çətirləri” bir-birinə millərlə birləşdirilirdi. Buddizmdə çətir zadəganlıq, zənginlik rəmzi sayılırdı. Bu cür çətirli evlərə Çində, Koreyada və Yaponiyada rast gəlmək olur. Buddistlər inanırdılar ki, çətirlər onları başqa dünyaların bəd qüvvələrindən qoruyur.

Bir vaxtlar Termezin 18 kilometrliyində Ayritam adlı liman-şəhər yerləşib. Orta Asiyada buddizm yayıldıqdan sonra bu ərazidə buddizmə aid müxtəlif abidələr tikilməyə başlayıb. Kuşan səltənəti dövründə Ayritamda ərazisi 3 kilometr olan nəhəng buddist məbəd-monastır kompleksi fəaliyyət göstərib. Çiy kərpicdən inşa olunan kompleksdə ziyarətgah, təsərrüfat otaqları olub. Bizim dövrə yalnız divarların qalıqları gəlib çatıb.

Qazıntılar nəticəsində tapılan lövhələrin üzərindəki yazılar tikintinin hansı mərhələlərlə aparıldığından xəbər verir. Təəssüf ki, uzun müddət suyun altında qaldığından yazıların çoxu silinib. 1932-ci ildə akademik M.E.Massonun rəhbərliyi



altında aparılan tədqiqatlar zamanı Amudərya çayının dibindən üzərində insan şəkilləri olan lövhələr tapılıb.

Bir il sonra isə daha 7 lövhə və buddist məbədinin qalıqları aşkar edilib. Eramızın I–II əsrlərinə aid olan lövhələrin üzərində ud, arfa, çiltar və çanq musiqi alətlərində çalan musiqiçilər, başlarında gül çələngləri olan, əllərində meyvə dolu qablar tutan gənc oğlan və qızlar təsvir olunub. Personajların hər birinin qulaqlarında sırğa, boyunlarında muncuqlar var. Bütün bunlar Budda ilə vida mərasimini əks etdirir. Belə hesab edilir ki, Budda son mənzilə musiqi sədaları altında gül-çiçəklə yola salınmalıdır. Hazırda Ayritam lövhələri Sankt-Peterburqda Ermitaj muzeyində saxlanılır.

Özbəkistanda ardıcıllarının sayına görə İslam, xristianlıq, iudaizmdən sonra buddizm dördüncü yeri tutur. Ölkədə buddizmə aid 20-dən çox abidə var. Onlardan çoxu ölkənin cənubunda, Surxandərya vilayətində yerləşir. Hər il Tailand, Çin, Koreya, Myanma, Malayziya, Yaponiyadan yüzlərlə rahib, zəvvar, turist bu müqəddəs yerlərə ziyarətə gəlir.

Özbəkistanda ziyarət turizminin inkişafına böyük diqqət yetirilir. Təsadüfi deyil ki, 2019-cu ildə imzalanan Buxara bəyannaməsində Özbəkistan ziyarət turizminin mərkəzlərindən biri elan edilib.

***Qulu KƏNGƏRLİ,***
***“Xalq qəzeti”nin xüsusi müxbiri***

**Termez**

# Xızı–Abşeronda külək təmiz enerjiyə çevriləcək

## *40 turbin ildə ölkəyə 1 milyard kilovat-saat enerji verəcək*

**Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətinin Azərbaycanda inşa etdiyi 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyası (KES) üçün turbinlər artıq Bakıya çatdırılıb.**

Qeyd edək ki, “Xızı-Abşeron” KES-də layihə çərçivəsində hər biri 6 MVt gücündə 40 külək turbin işə salınacaq. Belə ki, Abşeron rayonunun Pirəkəşkül kəndində 17, Xızı rayonunun Sitalçay yaşayış məntəqəsində isə 23 turbin quraşdırılacaq. Ümumi dəyəri 300 milyon ABŞ dolları olan layihə “build - own – operate” (tik – sahib ol – idarə et) prinsipi əsasında həyata keçiriləcək.

Elektrik stansiyasında illik 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq, eyni zamanda, 220 milyon kubmetrədək qaza qənaət ediləcək, habelə ətraf mühitə atılan tullantıların həcmi ildə 400 min tonadək azaldılacaq. Layihənin reallaşdırılması müasir istehsal və xidmət sahələrinin yaranmasına, yeni iş yerlərinin açılmasına da töhfə verəcək. Enerji infrastrukturu 2025-ci ildə istismara buraxılacaq.

Xatırladaq ki, 2022-ci il yanvarın 13-də Gülüstan sarayında Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkətinin hazırda Azərbaycanda inşa edilən 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının təməli qoyulub. Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə çıxış edərək deyib: “Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək. Belə bir mühüm enerji infrastrukturunun yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti arasında icra müqaviləsi imzalanıb. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilib və son bir il ərzində fəal iş aparılaraq hazırda artıq biz bu tarixi günü birlikdə qeyd edirik”.



Dövlətimizin başçısı nitqində təməli qoyulan stansiyanın Azərbaycanın bərpaolunan enerji sektorunda ən böyük elektrik infrastrukturu olacağını bildirib. Ölkə rəhbəri bu obyektin reallaşması ilə həm də respublikamızın enerji təhlükəsizliyinin daha da möhkəmlənəcəyini, çoxlu iş yerinin yaradılacağını vurğulayıb. Həmçinin stansiyanın işə düşməsi ilə təbii qaza qənaətdə növbəti addımın atılacağını, eyni zamanda, bununla ətraf mühitə mənfi təsirin azalacağını da diqqətə çatdırıb.

Prezident İlham Əliyev həmin çıxışında bərpaolunan bu böyük enerji layihəsinin icraçısı və investorunun qardaş Səudiyyə Ərəbistanının şirkəti olduğunu, bu ölkə ilə Azərbaycan arasında çox sıx dostluq və qardaşlıq münasibətlərinin mövcudluğunu da xatırladıb: “Biz müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsində fəal çalışmışıq. Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, Vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızdakı dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, xalqımız Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərəbistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla, ümumiyyətlə, diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın göstəricisidir. Xalqımız bunu yüksək qiymətləndirir”.

Qeyd edək ki, “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının inşasını reallaşdıran və bu sahədə böyük təcrübəsi olan, eləcə də səmərəli fəaliyyəti ilə dünyada tanınan “ACWA Power” şirkəti tərəfindən indiyədək tikintisi gerçəkləşdirilən stansiyaların enerji istehsalı gücü 42 min meqavatdan çoxdur. Şirkətin ölkəmizdə fəaliyyət göstərməkdə maraqlı olması da təsadüfi deyil. Çünki bu məsələdə Azərbaycanla ikitərəfli dövlətlərarası əlaqələr böyük əhəmiyyətə malikdir.

Digər tərəfdən, son illər respublikamızda, o cümlədən energetika sahəsində aparılan islahatlar, əlverişli investisiya iqlimi, xarici investisiyaların qorunması, ölkəmizin uğurlu inkişafı və sabitliyi də hər bir investor üçün önəmli rol oynayır. Beləliklə, böyük nüfuza malik “ACWA Power”nin Azərbaycanda fəaliyyətə başlaması–Xızı rayonunda 240 meqavat gücündə külək elektrik stansiyasının tikilməsi qərarını verməsi də məhz qeyd edilən sabitlik və cəlbedici investisiya amili ilə bağlıdır.

Azərbaycanın isə belə bir enerji layihəsinə xüsusi önəm verməsi təsadüfi deyil. Çünki respublikamız müstəqillik dövründə uzun illər ərzində enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb, bu istiqamətdə bir sıra layihələri uğurla gerçəkləşdirib. Azərbaycan, eyni zamanda, dünya miqyasında nadir ölkələrdəndir ki, elektrik enerjisi ilə bərabər, həm də xam neft, təbii qaz, neft məhsulları ilə daxili tələbatı tam ödəmək üçün istehsalı gücləndirib və paralel olaraq bu məhsulların dünya bazarlarına ixracını həyata keçirib. Azərbaycanın bərpaolunan enerji mənbələri sahəsinə xarici və yerli investorların marağı getdikcə artır. Çünki respublikamız alternativ enerji mənbələri ilə zəngin resurslara malik ölkələrdən biridir.

Yeri gəlmişkən, ölkəmizin alternativ və bərpaolunan enerji potensialı ilə zəngin olması artıq öz təsdiqini tapıb. Belə ki, son tədqiqatlar Azərbaycanın quru ərazisində 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyib. Bunun isə 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı dağ çaylarının payına düşür. Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir.

“Yaşıl enerji” zonası layihəsinin Qarabağ və ətraf rayonlarda reallaşdırılmasını potensial imkanlarla bərabər, digər amillər də şərtləndirir. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına və ekoloji tarazlığın təmin edilməsinə yönəldildiyindən, Qarabağın bərpa-yenidənqurma məsələlərində də bu istiqamət əsas götürülür. Başqa sözlə, “yaşıl enerji” zonası kimi bərpa olunması nəzərdə tutulan Qarabağın dünyanın ən müasir yaşayış məskənlərindən biri olaraq yenidən qurulmasına xüsusi əhəmiyyət verilir.

Günəş və külək enerjisi potensialının səmərəli istifadəsini təmin etmək üçün 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması mühüm vəzifə olaraq müəyyənləşdirilib. Həmçinin 2030-cu ilədək təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi nəzərdə tutulub. Bu vəzifənin məhz özəl investisiyalar hesabına reallaşdırılması planlaşdırılıb.

Hazırda həmin potensialın hərəkətə gətirilməsi istiqamətində mühüm layihələr həyata keçirilir, “yaşıl enerji” istehsalı ilə əlaqədar cəlb olunan sərmayələr nəticəsində ölkəmizin ayrı-ayrı yerlərində günəş, külək və su elektrik stansiyaları tikilir. Artıq Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin Bakının Qaradağ rayonunda reallaşdırdığı layihə– “Qaradağ” Günəş Elektrik Stansiyası real fəaliyyət sahəsinə çevrilib.

**Əsrin müqaviləsi – 30**

# “Əsrin müqaviləsi”nin ilkin addımı –“Faza-1” layihəsi

## *Ötən müddətdə “Mərkəzi Azəri” platformasından 150 milyon ton neft çıxarılıb*

**Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri–Çıraq–Günəşli” yataqlar blokunun işlənməsi müqavilə sahəsinin bir ərazini əhatə etməsi, eləcə də buradakı zənginlik səbəbindən bir neçə mərhələyə bölünüb. Bu barədə qərar Azərbaycan hökuməti ilə beynəlxalq konsorsiumun iştirakçıları arasında əldə olunmuş razılaşmaya əsasən verilib.**



Belə bir qərarın qəbul edilməsinin digər mühüm səbəbi isə “Əsrin müqaviləsi” çərçivəsində nəzərdə tutulmuş böyük neft hasilatına başlananadək zəruri ixrac sisteminin yaradılması ilə bağlı olub. “Əsrin müqaviləsi”nin uğurla reallaşdırıldığı “İlkin neft” layihəsi çərçivəsində Azərbaycan Dövlət Neft Şirkətinin balansında olan bir sıra infrastruktur obyektlərində modernləşdirmə işləri həyata keçirilib. Bu mərhələdə “Dədə Qorqud” qazma qurğusu əsaslı şəkildə yenidən qurulub, 24 quyunun qazılması üçün nəzərdə tutulmuş “Çıraq” platforması istismara verilib. Buradan sahilədək 176 kilometr uzunluğunda sualtı neft kəməri çəkilib, Səngəçalda dünya səviyyəli terminal inşa olunaraq ilk neftin qəbulu və onu ixrac siteminə yönəltmək üçün hazır vəziyyətə gətirilib.

AÇG-nin işlənilməsi dövründə ən mürəkkəb və məsuliyyətli mərhələ sayılan “İlkin neft” layihəsi üzrə əldə olunmuş zəngin təcrübə sonralar “Azəri” yatağının və “Günəşli”nin dərinlikdə yerləşən hissəsinin də işlənməyə cəlb edilməsi üçün yol açıb. Beləliklə, 2001-ci il avqustun 30-da ABƏŞ-in Rəhbər Komitəsi “Azəri–Çıraq–Günəşli dəniz yataqlarının tammiqyaslı işlənilməsinin Faza-1” layihəsini təsdiqləyib. Bununla bağlı müvafiq sənədi Azərbaycanın dövlət başçısı Heydər Əliyevin iştirakı ilə ARDNŞ prezidenti Natiq Əliyev və ABƏŞ-in rəhbəri Devid Vudvord imzalayıblar.

“Azəri” yatağının mərkəzi hissəsinin işlənilməsini nəzərdə tutan “Faza-1” layihəsi çərçivəsində, ilkin proqnozlara əsasən, 1 milyard 425 milyon barel və ya 193 milyon ton neftin hasilatı nəzərdə tutulub. Layihənin ümumi dəyəri 3,4 milyard dollar təşkil edib ki, bunun da 2,74 milyard dolları tikinti işlərinə, qalan hissəsi isə quyuların qazılmasına sərf olunub. Bununla yanaşı, xaricdən Bakıya gətirilən material və avadanlıqların daşınmasına, təqribən, 700 milyon dollar xərclənib.

Xatırladaq ki, “Faza-1” layihəsi çərçivəsində AÇG-dən gündəlik neft hasilatının 133 min bareldən 375 min barelə çatdırılması nəzərdə tutulurdu. Bu isə dənizdə və quruda nəhəng tikinti-quraşdırma işlərinin həyata keçirilməsini tələb edirdi. Bu məqsədlə 2001-ci il noyabrın 30-da Bakıda “Faza-1” layihəsinin həyata keçirilməsi çərçivəsində 5 xarici şirkətlə ümumi dəyəri 750 milyon dollar olan 6 böyük müqavilə imzalanıb. “Mərkəzi Azəri” platformasının üst modullarının tikintisi, eləcə də sualtı neft kəmərlərinin çəkilməsi ABŞ-nin “McDermott Caspian Constractors” şirkəti tərəfindən həyata keçirilib. Platformanın dayaq blokunun, svayların və qazma əməliyyatları üçün qurğunun dayaq plitəsinin tikintisi; dənizdə nəqletmə və quraşdırma işləri; qazma avadanlığı ilə təminat; yaşayış bloklarının inşası isə müvafiq olaraq Fransanın “Boygues Offshore”, İtaliyanın “Saipem”, Fransanın “Eiffel” və İsveçin “Emtunqa İnternational” şirkətləri tərəfindən reallaşdırılıb.

“Faza-1” layihəsi çərçivəsində “Mərkəzi Azəri” platformasının dayaq bloklarının tikintisi və platformanın modullarının montaj edilməsi Azərbaycan Dövlət Neft Şirkətinin “Şelflayihətikinti” İstehsalat Birliyinin (indiki Heydər Əliyev adına Dərin Özüllər Zavodu) meydançasında həyata keçirilib. Bununla yanaşı, layihə çərçivəsində dənizdə həyata keçirilən bir sıra əməliyyatlar zamanı ARDNŞ-nin neft donanmasına aid olan borudüzən gəmilərdən, kran və barjalardan, həmçinin xidməti gəmilərdən istifadə edilib.

Qeyd edək ki, “Mərkəzi Azəri” Bakıdan 100 kilometr şərqdə, Xəzərin 128 metr dərinliyində yerləşən dəniz hasilat, qazma və yaşayış platformasıdır. 2005-ci ilin fevralından istismarda olan platforma “Azəri” yatağının mərkəzi hissəsindən neft hasil etmək üçün tikilib. Bundan əlavə, müqavilə sahəsində yaşayış, qazma, hasilat, texnoloji emal, kompressiya və laya qaz, su, şlam vurulması obyektlərini əhatə edən iri bir dəniz kompleksi yaratmaq məqsədilə kompressor və suvurma platforması inşa olunub. Hər iki platforma isə körpü vasitəsilə bir-birinə birləşdirilib. Ümumilkdə isə, “Faza-1” layihəsinin obyektlərinə 48 quyu gövdəsinə malik hasilat, qazma və yaşayış platforması, buradan Səngəçal terminalına qədər 30 düymlük neft və 28 düymlük sualtı qaz boru kəmərləri, adı çəkilən terminalın genişləndirilməsi işləri daxildir.

“Azəri–Çıraq–Günəşli” yataqlar blokunun tammiqyaslı işlənmə layihəsinin birinci mərhələsi çərçivəsində tikinti-quraşdırma işləri 2004-cü ilin sonlarında başa çatdırılıb. 2005-ci il fevralın 14-də isə “Mərkəzi Azəri” platforması istismara verilib. Bununla da, “Əsrin müqaviləsi” çərçivəsində böyük neft hasilatına başlanılıb. Ötən müddətdə “Mərkəzi Azəri” platformasından 1,1 milyard barel və ya 150 milyon ton neft çıxarılıb. Burada illik maksimal neft hasilatı isə 2007-ci ildə qeydə alınıb. Həmin il platformadan gündəlik orta hasilat 244 min barel və ya illik 12 milyon ton olub. Sonrakı illərdə müqavilə sahəsində hasilatın aşağı düşməsi fonunda bu göstərici xeyli azalıb. “BP–Azərbaycan” şirkətinin məlumatına görə, cari ilin birinci yarısında “Mərkəzi Azəri” platformasında gündəlik neft hasilatı 96 min barel təşkil edib.

# Türkiyə ilə ümumi yatırım 36 milyard dollara çatıb

**1995-ci ildən 2024-cü ilin birinci I rübünün sonuna qədər Azərbaycan Türkiyəyə, təqribən, 20 milyard ABŞ dolları, qardaş ölkə isə respublikamıza 16 milyard ABŞ dolları dəyərində investisiya yatırıb.**



İqtisadiyyat Nazirliyindən qəzetimizə bu barədə verilən məlumatda bildirilir ki, ölkəmizdə 4200-ə yaxın Türkiyə investisiyalı kommersiya qurumu fəaliyyət göstərir və Azərbaycanda iqtisadiyyata cəlb olunan birbaşa xarici sərmayələrin həcminə görə, qardaş ölkə 2-ci yerdə qərarlaşıb.

Qeyd edək ki, cari ilin yanvar–iyul aylarında Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcmi 3 milyard 620 milyon 387 min ABŞ dolları təşkil edib.

# Azərbaycan “IVECO”sunun 70 faizi ixrac ediləcək

**“Az-Tex-Import” MMC-in “IVECO” brendi altında istehsal edəcəyi yük avtomobillərinin, təxminən, 70 faizi ixraca yönəldiləcək.**

“Araz Vadisi İqtisadi Zonası” və Sumqayıt Kimya sənaye parklarının rezidenti “Az-Tex-Import” MMC-nin təsisçisi Samir İbadullayevin qəzetimizə bildirdiyinə görə, “IVECO” avtomobillərinin Türkiyə, Gürcüstan, Rusiya və İrana ixracı planlaşdırılır: “Azərbaycan bazarında məhsullarımıza kifayət qədər tələbat var. Daxili tələbatı ödəməklə yanaşı, xaricə də məhsul göndərəcəyik. Biz ixraca daha çox maraq göstəririk”.




S.İbadullayev qeyd edib ki, Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərəcək müəssisədə il ərzində 100 ədəd yüngül, orta və ağır tonnajlı yük avtomobili istehsal olunacaq: “Artıq sifariş edilən ilk 12 avtomobilin hissələri yaxın günlərdə Azərbaycana gətiriləcək. Noyabr ayında Sumqayıtda istehsala başlamaq planlaşdırılır. Gələcəkdə orta və kiçik tutumlu sərnişin avtobuslarının buraxılması da nəzərdə tutulur”.

Qeyd edək ki, “Az-Tex-Import” MMC Cəbrayılda da “IVECO” brendinin yüngül tonnajlı yük avtomobillərini istehsal edəcək. Artıq həmin ərazidə müəssisənin inşasına başlanılıb. Zavodda 80 nəfər işlə təmin olunacaq.

# Gömrük gəlirləri 7 faiz çoxalıb



**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin yanvar–iyul aylarında Azərbaycanın dövlət büdcəsinə gömrük daxilolmaları 3 milyard 843,61 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz çox) təşkil edib.**

Son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 39 faiz artaraq 1 milyard 263 milyon 961 manat olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# COP29-a hazırlıq Azərbaycanı ekoloji mübarizə mərkəzinə çevirib

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etmək məsuliyyətini üzərinə götürən Azərbaycan Respublikası ilk günlərdən qlobal ekoloji böhranın mənfi təzahürlərinin aradan qaldırılması sahəsində fəaliyyətini xeyli gücləndirib. Ötən müddətdə bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla sıx təmaslar qurulub, bütün tərəflərin və həmfikir qrupların, eləcə də müşahidəçi qismində çıxış edən (tərəf olmayan) digər maraqlı tərəflərin fikir və rəyləri diqqətlə dinlənilib.**

COP29-un müəyyən olunmuş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin bir qədər əvvəl Tərəflərə və Həmfikir Qruplara ünvanladığı məktubunda qeyd olunduğu kimi, dünyanın iqlim sahəsində fəaliyyət göstərən bütün qurumları COP29-un uğuru naminə ortaq və aydın istək birləşdirir. Müasir dünyamızda milyardlarla insan üçün real təhlükə olan iqlim dəyişiklikləri hazırda bütün bəşəriyyəti ciddi təhdid edir. Belə ki, bu qorxunc tendensiya dünya dövlətləri üçün dağıdıcı nəticələrə səbəb olmaqla yanaşı, onilliklər ərzində qlobal inkişaf çərçivəsində əldə olunan nailiyyətlər üçün də real təhlükə yaradır.

Bununla belə, dünya ölkələrinin, beynəlxalq təşkilatların bu sahədə nümayiş etdirdikləri qlobal həmrəylik, həyata keçirdikləri təsirli tədbirlər bəşəriyyətə yaxşı gələcək vəd edir. COP29-un müəyyən olunmuş prezidentinin sözügedən məktubunda da bildirilir ki, artan geosiyasi gərginliklər və beynəlxalq müstəvidə müşahidə olunan qeyri-müəyyənliklər bizi əsrin ən böyük transmilli problemi olan iqlim dəyişməsi ilə mübarizə çərçivəsində əməkdaşlığa sövq etməli və bu problemin həllini təmin etmək amalından yayındırmamalıdır. Sənəddə qeyd olunur: “Biz inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında körpü rolunu oynamaq və COP29 çərçivəsində bu prosesi konsensusa aparmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik. İqlim dəyişməsi ilə mübarizəni müştərək öhdəlik, mənəvi borc və dayanıqlı inkişaf üçün əvəzolunmaz fürsət kimi görmək indi hər zaman olduğundan daha vacibdir. Əminəm ki, bu, həm də sizin rəhbərlərinizin müəyyən etdiyi və təmsil etdiyiniz xalqların gözlədiyi bir istiqamətdir”.

Məktubda iqlim fəaliyyətinə təkan vermək üçün COP29 Sədrliyinin konsepsiyası təqdim olunmaqla yanaşı, sənədi reallığa çevirmək üçün atılacaq addımlar açıqlanır, birgə fəaliyyət üçün tələb olunan əməkdaşlıq istiqamətləri vurğulanır. Qeyd olunur ki, COP29 həm Paris Sazişi, həm də qlobal iqlim tədbirləri və əməkdaşlığı üçün bir sınaq olacaq. “Fəaliyyətimiz ən



son elmi nəticələri rəhbər tutmalı, habelə 1,5°C hədəfini saxlamaq və heç kimi geridə buraxmamaqla bağlı yol xəritəsi də daxil olmaqla, COP28-də Tərəflərin razılaşdırdığı Qlobal Baxışın (GST) nəticələrini nəzərə almalıdır”, – deyə M. Babayev yazır. Onun sözlərinə görə, COP29 bütün tərəflərin mümkün ən yüksək ambisiyaya nail olmaları üçün lazımi icra və dəstək vasitələrinin təmin edilməsində, eləcə də ədalət və ümumi, lakin fərqləndirilmiş məsuliyyətlər və müvafiq imkanlar prinsipi nəzərə alınmaqla hər kəsin mümkün ən yüksək ambisiyaya çatmasında mühüm rol oynayacaq.

Ölkəmizin mötəbər iqlim konfransını şəffaf, obyektiv, inkluziv və tərəflərin idarə etdiyi şəkildə həyata keçirməyə qərarlı olduğunu vurğulayan COP29-un müəyyən olunmuş prezidenti ötən müddətdə bu sahədə həyata keçirilmiş hazırlıq işləri və çoxsaylı görüşlərlə yanaşı, növbəti aylarda reallaşdırılması nəzərdə tutulan tədbirlər, qarşıda duran vəzifələrlə bağlı geniş və əhatəli məlumat verib.

Məlum olduğu kimi, dünya ölkələrinin, iqlim sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət təşkilatlarının COP29-dan gözləntiləri olduqca yüksəkdir. Bakı konfransında həllinin tapılacağına ümid bəslənilən məsələlərdən biri də iqlim maliyyələşdirilməsi ilə bağlıdır. Təsadüfi deyil ki, bu mühüm məqam COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayevin Tərəflərə və Həmfikir Qruplara ünvanladığı məktubda da öz əksini tapıb. Paris Sazişinin bütün istiqamətlərində, xüsusilə də iqlim maliyyəsi sahəsində COP29-da birgə irəliləyişin əldə edilməsi üçün güclü çağırışların olduğunu vurğulayan məktub müəllifi yazır: “COP29 Sədrliyinin danışıqlarda əsas prioriteti inkişaf etməkdə olan Tərəf ölkələrin ehtiyac və prioritetlərini nəzərə alan ədalətli və ambisiyalı Fəaliyyətə təkan verilməsi, Maliyyə və İqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfini razılaşdırmaqdır. Lakin bu, yalnız bizim prioritetimiz deyil. COP29 Sədrliyi COP29-da bu addımı atacağımıza ümid edən bir çox Tərəflərin, eləcə də icmaların səsini eşitmişdir. Bu tarixi nailiyyəti əldə etmək üçün hamımız lazım olandan daha artığını etməliyik”.

Bu il noyabrın 11-də dövlət və hökumət başçılarının iştirakı ilə rəsmi açılışı keçirilən COP29-un növbəti iki günü ərzində İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti keçiriləcək. COP29-un müəyyən olunmuş prezidenti M. Babayevin sözügedən məktubunda bütün dünya liderləri tədbirdə iştiraka dəvət olunur, onların Paris Sazişinin irəlilədilməsi istiqamətində öhdəliklər götürmək üçün tədbirə hazırlıqlı gəlmələri tövsiyə olunur.

# Almaniya şirkəti ilə “yaşıl” əməkdaşlıq

**Energetika Nazirliyində Almaniyanın “Uniper” şirkətinin nümayəndə heyəti ilə görüş keçirilib. Nazir müavini Elnur Soltanovun iştirakı ilə reallaşan tədbirdə mövcud əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə olunub. Qaz təchizatı, enerji təhlükəsizliyi, təchizatın şaxələndirilməsi, enerji səmərəliliyi, enerji keçidi, bərpaolunan enerji sahəsində əməkdaşlıq və perspektiv imkanlar müzakirə edilib.**




Ölkəmizdə “yaşıl” enerji zonalarının yaradılması, “yaşıl” enerji potensialı, istehsalı və ixracı məsələlərindən danışılıb, bu il ölkəmizdə keçiriləcək COP29 tədbiri çərçivəsində Azərbaycanın “yaşıl” enerji sahəsi üzrə hədəflədiyi planlar və təşəbbüslər barədə məlumat verilib. Müzakirə zamanı “yaşıl” hidrogenin istehsalı və ixracı sahəsinin inkişafı məsələləri nəzərdən keçirilib, “yaşıl” hidrogenin istehsalı və saxlanılması, eləcə də mavi hidrogen texnologiyalarının genişləndirilməsi sahəsində əməkdaşlıq imkanları və birgə layihələrin həyata keçirilməsi müzakirə edilib, bu sahədə təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd olunub.

Yeri gəlmişkən, son illər “yaşıl” hidrogenin gündəmə gətirilməsi təsadüfi xarakter daşımayıb. Belə ki, uzun bir dövr ərzində dünyada tələbat əsas enerji daşıyıcısı kimi kömür, neft və qaz kimi yanacaq növləri ilə qarşılanıb. Ancaq zaman keçdikcə bu ənənəvi resurslar həm azalmağa başlayıb, həm də onların istifadəsinin ekoloji tarazlığın pozulmasına təsiri aydın nəzərə çarpıb. Təbii ki, belə bir şəraitdə hidrogen enerjisinə maraq da artıb.

Mütəxəssislərin bildirdiklərinə əsasən, hidrogen özü yüngül olduğu üçün yanma zamanı ondan 3 dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə mövcud potensialın zənginliyinə və ekoloji təmizliyinə görə hidrogen “gələcəyin yanacağı” adlandırılır.

Əsas enerji mənbələrindən biri sayılan hidrogen iqlim böhranı ilə səmərəli mübarizədə və davamlı inkişafı dəstəkləməkdə əhəmiyyətli rol oynayır. Uzun bir dövrdə güclü transformasiyaya uğrayan hidrogen enerjisi bu gün “yaşıl gələcəy”ə gedən yolda daha çox diqqət çəkir, karbonsuzlaşma prosesində mühüm önəm daşıyır, davamlı inkişafın əsas komponentləri sırasında yer alır.

“Yaşıl” hidrogenin istehsalı ilə müqayisədə daha ucuz başa gələn “mavi” hidrogenin Azərbaycanda tətbiqi üzrə bir sıra çətinliklər mövcuddur. Məsələn, karbon qazının tutulması və saxlanılması ilə bağlı texnologiyanın tətbiqindəki qeyri-müəyyənliyin nəzərə çarpması, istehsal olunan “mavi” hidrogenin beynəlxalq aşağı karbon standartlarına cavab verməməsi, təbii qaza tələbatın artması kimi çağırışlar var.

“Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” ölkə Prezidentinin 2019-cu il 5 dekabr tarixli Sərəncamı ilə Azərbaycanda bərpaolunan enerji mənbələri (külək və günəş) üzrə elektrik stansiyalarının tikintisi ilə əlaqədar layihələrin həyata keçirilməsi və icrasının əlaqələndirilməsi məqsədilə yaradılan komissiyanın 2024-cü il 28 mart tarixli iclasının protokoluna əsasən, hidrogendən istifadə üzrə müvafiq konseptual-strateji sənəd layihəsinin hazırlanaraq razılaşdırılması prosesinin sürətləndirilməsi, yenilənmiş tərkibdə İşçi Qrupun yaradılması nəzərdə tutulub.

Bununla bərabər, “Azərbaycan Respublikasının 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası”nda hidrogenin istehsalı və ondan istifadə sahəsində potensialın öyrənilməsi, eyni zamanda, bu sahədə pilot layihələrə dair təkliflərin formalaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub. Bu istiqamətdə ölkəmizdə “yaşıl hidrogen” potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair müqavilələr imzalanıb və bir sıra araşdırmalar aparılıb.

Xatırladaq ki, 2024-cü il avqustun 28-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf də “Uniper”in İdarə Heyətinin üzvü və baş kommersiya direktoru Karsten Poppinqa ilə görüşüb. Görüşdə ölkəmizin milli neft şirkəti və “Uniper” arasında enerji biznesi ilə bağlı strateji tərəfdaşlıq əlaqələrinin daha da gücləndirilməsi imkanları nəzərdən keçirilib. Söhbət zamanı şirkətlər arasında “Şahdəniz” yatağından hasil edilən təbii qazın alqı-satqısı üzrə sazişin uğurla həyata keçirildiyi vurğulanıb və qaz təchizatı sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.

Tərəflər neft-qaz sektoru ilə yanaşı, enerji keçidi, enerji səmərəliliyinin artırılması sahələrində əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# “İqlim savaşı”nın investisiya mənbələri

**COP29 sədrliyi iqlim fəaliyyəti üçün investisiyaların cəlb olunmasını müzakirə edib. Bununla bağlı COP29-un icraçı direktoru Elnur Soltanov və COP29-un İqlim üzrə Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai Dünya İqtisadi Forumunun (WEF) “İqlim fəaliyyətinin gücləndirilməsi üçün ianə” (GAEA) təşəbbüsünün nümayəndələri ilə görüşüblər.**

Bu barədə COP29-un “X” sosial şəbəkəsindəki hesabında paylaşım edilib. “Bu gün Dünya İqtisadi Forumunun GAEA (Giving to Amplify Earth Action) təşəbbüsünün nümayəndələri ilə yaxşı müzakirələr aparıldı. Buraya iqlim fəaliyyətinə daha çox investisiya cəlb etmək üçün xeyriyyəçilikdən necə istifadə oluna biləcəyi barədə fikir mübadiləsi daxildir”, – deyə paylaşımda qeyd edilib.



# Təmiz qida təlimləri



**COP29 Azərbaycan Əməliyyat Şirkəti yerli otellərin təhlükəsizliyi və dayanıqlılığının artırılması istiqamətində təlim proqramının icrasına başlayıb.**

Təlim proqramı beynəlxalq qida təhlükəsizliyi tələb və qaydalarının baza prinsipləri əsasında Azərbaycana məxsus yerli xüsusiyyətlər nəzərə alınmaqla tərtib edilib və Ətraf Mühitin Sağlamlığı üzrə Lisenziyalı İnstitut tərəfindən təsdiqlənib.

Layihənin əsas məqsədi COP29 konfransı zamanı dünyanın müxtəlif ölkələrindən respublikamıza səfər edəcək çoxsaylı ziyarətçilərin ən yüksək qida təhlükəsizliyini standartlara uyğun təmin etməkdir.

Otel şəbəkələrində göstərilən xidmətlərin təkmilləşdirilməsi və işçi heyətlərin səriştələrinin artırılmasına yönələn təlimlərin məzmunu qida təhlükəsizliyinin bütün kritik aspektlərini əhatə edib. Belə ki, qida məhsullarının hazırlanmasından paylanmasına qədər olan prosesdə faydalı təcrübələr, qidalanmanın idarə edilməsində gigiyena qaydaları, xidmət sahəsində çalışan əməkdaşların şəxsi məsuliyyətinin vacibliyi və bir sıra digər mühüm mövzular proqramda öz əksini tapıb. İştirakçılar, həmçinin səmərəli preventiv və nəzarət tədbirləri, qidaların təhlükəsiz saxlanma qaydaları və digər bu kimi ətraflı təlimatlardan yararlana bilirlər.

Qeyd edək ki, təlim proqramı paytaxtın bir sıra digər otellərini də əhatə etməklə oktyabr ayının sonunadək davam edəcək.

# İqlim konfransına tibbi xidmət göstəriləcək

**Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçiriləcəyi dövrdə tibbi xidmətlərin təşkili üçün hazırlıq işlərinə başlanılıb.**

Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyindən (TƏBİB) verilən məlumata görə, COP29 ilə əlaqədar ixtisaslı tibbi xidmətin göstərilməsi üçün ayrılan səhiyyə müəssisələri arasında qurumun tabeliyində



fəaliyyət göstərən Yeni Klinika da yer alıb. Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş Prezidenti Muxtar Babayev və TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov klinikada aparılan hazırlıq prosesi ilə tanış olublar.

TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov bildirib ki, Yeni Klinikanın təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində xüsusi monitor və oksigen panelləri ilə təmin olunmuş 10 çarpayı, uşaq təcili tibbi yardım şöbəsində 3, stasionar şöbədə 10, reanimasiya şöbəsində 4, uşaq reanimasiya və intensiv terapiya şöbəsində 3 çarpayı və 1 əməliyyatxana tibbi xidmətə zərurət ehtimalı nəzərə alınaraq tədbir üçün ayrılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Bir ədibin publisistik manifesti

## Gənc Mir Cəlalın "Kommunist" qəzetində jurnalist fəaliyyəti

**Azərbaycan milli mətbuatının yaranması və inkişafında milli məfkurəli ədiblərin rolu və mövqeyi misilsizdir. Bu gün 105 yaşını qeyd edən "Xalq qəzeti"nin (1991-ci ilədək "Kommunist") tarixini də tanınmış söz ustalarımızın imzaları, dəyərli yazıları zənginləşdirib və şərəfləndirib. Görkəmli yazıçı-ədəbiyyatşünas və pedaqoq Mir Cəlal Paşayevin bioqrafiyası bu qəzetlə daha sıx bağlı olub.**

Gənclik illərində qəzetin əməkdaşı olmuş Mir Cəlal müəllim sonrakı çoxillik bədii yaradıcılığı və elmi-pedaqoji fəaliyyəti dövründə də redaksiyanın sevimli müəllifi olaraq qalıb. Onilliklər boyu "Xalq qəzeti"ndə çalışmış jurnalistlərin də əksəriyyəti Mir Cəlalın yaradıcılıq məktəbinin yetirmələri olub. Mir Cəlal müəllimin qəzetimizin səhifələrində yaşayan publisistik irsi onun böyük yazıçı olmaqla yanaşı, sənədli yaradıcılıqda da ustad müəllif olduğunu göstərir.

Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayev nainki ədəbi-elmi ictimaiyyətin, eləcə də ölkənin jurnalistika aləminin sevimli müəllimi, ustadı və unudulmaz dostu kimi daim xatirələrdə yaşayır, adının çevrəsinə mənəvi zənginlik saçır. Unudulmaz müəllimimizin ötən əsrin 70-ci illərində BDU-nun jurnalistika və filologiya fakültələrində dərs dediyi tələbələrin bir neçəsi bu gün də qəzetimizdə çalışır.

Bu böyük şəxsiyyətin, səmimi insanın, ustad qələm sahibinin "Xalq qəzeti" ilə çoxcəhətli bağlılığı ötən illərdə olduğu kimi, qəzetin 105 ilik yubileyi günlərində də xoş xatirələrlə və belə bir kamil insanın




qəzetimizin əməkdaşı olmasından doğan qürur hissi ilə yada düşür. Apardığımız qısa araşdırma göstərdi ki, Mir Cəlal müəllimin milli jurnalistikamızda xidmətləri, zəngin publisistika irsi, xüsusən "Kommunist" qəzeti ("Xalq qəzeti") ilə çoxillik əməkdaşlığı ayrıca elmi tədqiqatın mövzusudur.

Yazıçı Mir Cəlalın ədəbi irsi o qədər parlaq və təsirli, elmi yaradıcılığı o dərəcədə dəyərli olub ki, sanki, onun publisist yaradıcılığı bu zənginliyin kölgəsində qalıb. Həqiqət isə budur ki, bu istedadlı yazıçı və dərin zəkalı alim ədəbi aləmə məhz mətbuatdan, coşğun və səmərəli jurnalist fəaliyyətindən gəlib. Bunu ədibin aşağıdakı xatirəsindən də aydın görürük: "Qəzet bizim yarımsavad, ibtidai yazılarımızı pozub, düzəldib, rəndələyib, ağardıb, abıra salıb çap edirdi. Altında imzamız olan yazını ilk dəfə qəzetdə görəndə sevincimizin hüdudu olmamışdır. Biz bu yazıları təkrar-təkrar oxumuş, həm sevinmiş, həm də öyrənmişik. Hər bir savadlı adam yaza bilər. Ancaq mətbuat üçün on minlər, yüz minlərin diqqətinə layiq yazı yazmaq, hər kəsə müyəssər olan asan bir iş deyil".

Mir Cəlalın 1926-cı ildən qələmə aldığı və mətbuatda dərc edilmiş məqalələrinin sayı 100-dən çoxdur. Hətta ilk işıq üzü görmüş "Sağlam yollarda" adlı kitabı da qəzet yazılarıdır. Topluda "Sağlam yollarda", "Qələbənin açarı", "Səsimizi dünya eşitsin", "Özək raport verir", "Münəvvəri dinləyin", "İşləməyən dişləməz", "Bayrağı bərk saxla", "Volqanın qucağında", "Zavodun tərcümeyi-halı", "Marksın dostu" mətbuatda dərc edilmiş oçerklərdir. 1930-cu ildə gənc yazıçı Mehdi Hüseyn "Ədəbiyyat cəbhəsində" qəzetində dərc etdirdiyi "Əskini yıxan, yenini quran şair" adlı məqaləsində Mir Cəlalın "Gənc işçi" qəzetində çap olunmuş yazılarından danışır, məqalələrin sənətkarlıq tərəfləri ilə yanaşı, aktuallığını da qeyd edir. Şübhəsiz ki, Mehdi Hüseyn kimi bir ədibin Mir Cəlalın publisistikasına diqqət etməsi və ona ayrıca məqalə həsr etməsi də bu yazıların o zaman diqqətçən publisistika nümunələri olmasından irəli gəlib.

Tanınmış tərcüməçi Cahanbaxış Cavadzadə isə Mircəlalın "Biz neçə böyüyürük" oçerki barədə "Komsomol səsi" adlı məqaləsini "Kommunist" qəzetinin 11 may 1934-cü il tarixli sayında dərc etdirmişdir.



Gənc jurnalistlər: Mir Cəlal sağdan birinci

Müəllifin qeyd etdiyi kimi, jurnalistika Mir Cəlalın qələmini daha da püxtələşdirmişdir. Yazıçı özü isə jurnalist yaradıcılığının özəlliyi barədə deyib: yaxşı jurnalist yaxşı yazıçı ola bilər, amma hər yazıçı yaxşı jurnalist ola bilməz.

Beləliklə, xatırlatdığımız bu nümunələr təsdiqləyir ki, Azərbaycan nəsrinin görkəmli nümayəndəsi və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin publisistik fəaliyyəti onun çoxşaxəli yaradıcılığının önəmli bir qolu olub. Akademik İsa Həbibbəyli bu barədə haqlı olaraq deyirdi: "Biz Mir Cəlal müəllim haqqında fikirləşərkən, ən azı, üç amili göz önünə gətirməli oluruq: yazıçı, ədəbiyyatşünas alim və müəllim: Buraya Mir Cəlal Paşayevin publisistika sahəsindəki çoxillik və səmərəli fəaliyyətini də əlavə etmək lazımdır". Bu mənada Mir Cəlal Paşayevin dövri mətbuatda dərc edilən məqalələrinin ilk dəfə küll halında toplanaraq 2018-ci ildə nəşr edilən 416 səhifəlik "Publisistika (1926-1977)" kitabı onun jurnalistika yaradıcılığının sanbalını və dəyərini əks etdirir.

Bu fəaliyyətin önəmli bir hissəsi ədəbi işçi kimi ilk addımlarını atdığı "Kommunist" qəzeti ilə bağlı olmuşdur. Bu yerdə böyük ədibin yaradıcılıq yolunun mətbuatdan və ilk dəfə rəsmi əməkdaşı olduğu "Kommunist"dən başladığı aydın görünür. Ədibin publisist fəaliyyəti 18 yaşlı gəncin 1926-cı ildə Gəncə Darülmüəllimində təhsil aldığı illərə təsadüf edir. 1926–1929-cu illərdə "Yeni fikir" və "Maarif yolu" nəşrlərində onun ilk məqalələri çap olunub.

Kazan Şərq Pedaqoji İnstitutunu bitirib Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirmək üçün Bakıya gəldikdən sonra isə Mir Cəlalın Bakı ədəbi mühiti ilə yaxından tanış olmaq imkanı yaranır. Onun dövrün bir sıra görkəmli şair və yazıçıları ilə, o cümlədən Mehdi Hüseyn, Hüseyn Cavid, Süleyman Sani Axundov kimi mötəbər ziyalılarla tanışlığı bu illərdə yaranmışdır. Bu əlaqələrin genişlənməsində onun müxbirlik fəaliyyətinin rolu "Kommunist" qəzeti ilə sıx bağlı olmuşdur.

"Kommunist" qəzetinin tədqiqatçısı Elmar Məhərrəmov Mir Cəlalın "Kommunist" qəzetindəki fəaliyyətindən söz açaraq qeyd edir ki, o zaman qəzetin nəzdində fəhlə müxbirləri kursları təşkil olundu. Tələblər yüksək olduğundan dinləyicilərin heç də hamısı kursların işində sona kimi iştirak edə bilmədi, "yalnız entuziastlar axıradək tab




Gənc jurnalistin vəsiqəsi

gətirirdi. Bu kursların dinləyicilərindən Balaqədəş Mürşüd Səttaroğlu, Əbdürrəhman dayı, Paşazadə Cəlal (Mir Cəlal Paşayev) sonralar "Kommunist" qəzetində işləməyə başladılar".

1927–1930-cu illəri əhatə edən o dövrün "Kommunist" qəzetində dərc edilən məqalə və xəbərlərin altında D., Z., A.N, M.P., 2 müxbir, N., 3 müxbir, 5 müxbir, V.K., İ.H., T.M., O. və bu kimi əlifbanın, az qala, bütün hərflərinin ya tək-tək, ya da qoşalaşdırılmış hərflərindən ibarət imzaları görməkdəyik. Təbii ki, bu imzaların böyük əksəriyyətinin əsl sahiblərinin kim olduğunu söyləmək çətindir, amma "Kommunist" qəzetinin 3 yanvar 1930-cu il sayında Şəmkir rayonu haqqında M.P. imzası ilə dərc edilən xəbərin, yaxud qəzetin 10 oktyabr və 19 oktyabr 1931-ci il tarixli saylarında M.P., M.C.. M., yenə də M.P., imzaları ilə dərc edilən məqalələrin Mir Cəlala aid olduğunu söyləmək olar. Bu yazıların təhlilini apardıqda və müqayisə etdikdə, redaktə üslubuna və fakta yanaşma tərzinə diqqət yetirdikdə aydın olur ki, onların müəllifi Mir Cəlal olmuşdur. M.C. və M. imzası ilə dərc edilən "Özünü yoxlama sürətini artırmalı" və "Plansız iş görürlər" məqalələri "Mir Cəlal" imzası ilə dərc edilən "Yeni yaradıcılıq pafosunu bolşevikcəsinə təşkil edəlim" və "Kolxozların təchizində plansızlıq" məqalələrindən heç nəyi ilə fərqlənmir.

Qəzetin 1 noyabr 1931-ci il sayında dərc olunmuş "Aşxana xüsusi əllərdə" adlı məqalədə oxuyuruq: "Zəyəm (Şamxor) stansiyasında aşxanaya köhnə bir zandarman müdir qoymuşlar. Bu hərif aşxanada bir qəssab dükanı açmışdır. "İşçiləri ətlə təmin etmək" bəhanəsi ilə şirin alverə başlamışdır.

İşçilərə 10 qəpiyə buraxılan çörəyi 40 qəpiyə satır. Aşxana ətrafında qoyun alverçilərini toplayaraq bir dəstə düzəltmişdir. Müdir aşxana haqqında olan hökumət



Gənc yazıçılar: Mir Cəlal soldan birinci

qərarlarını tərsinə tətbiq edir. Aşxana qumarxana halını alır. İşçilər iyrənir, buraya girmək istəmirlər. M."

Bu sadə xəbərin məzmun və təqdimatında Mir Cəlal üslubunu və yaradıcılıq tərzini görməmək mümkün deyil. M.C. və M. imzası ilə təqdim edilən və qəzetin təkcə 1931-ci ilin noyabr və dekabr saylarında yer alan bu cür xəbərlərin sayı isə onlarcadır. M.P., M.C. və M. imzası ilə təqdim edilən məqalələrin müəllifinin Mir Cəlal olduğuna zərrə qədər şübhə yoxdur. Amma "Mir Cəlal" bibliografiyası seriyasından olan nəşrlərin heç birində bunlara rast gəlmirik. Yaxşı olar ki, bu imza ilə dərc edilən məqalələr də böyük ədibin publisistik əsərləri sırasında yerini tapsın.

Mir Cəlalın "Kommunist" qəzetindəki fəaliyyəti ilə bağlı bütün mənbələrdə göstərilir ki, Kazan Pedaqoji İnstitutunu bitirdikdən sonra 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuş, "Kommunist", "Gənc işçi" qəzetlərində işləmişdir. "Kommunist" qəzetində işə qəbulu ilə əlaqədar 1955-ci ildə elə "Kommunist" qəzetində dərc etdirdiyi "Tələbkar müəllim" adlı məqaləsində ("Kommunist", 1955-ci il, 20 noyabr) böyük ədib özü də belə yazmışdı: "Bakıya gəlişimin ilk ilində, 1932-ci ilin əvvəllərində komsomolun Mərkəzi Komitəsindən məni "Kommunist" qəzetinin redaksiyasına göndərdilər: – Onlara cavan ədəbiyyatçı lazımdır, bir oraya gedin. Redaksiyada o zamanın qaydası ilə məni danışdırıb yoxlayandan sonra "Sabah işə gəl!"– dedilər. Bundan böyük xoşbəxtlik olardımı?"

Ədib daha sonra qəzetçilik fəaliyyəti barədə bildirmişdi: "Cürətlə deyə bilərəm ki, "Kommunist"dən aldığım ilk vərdişlər mənim üçün çox faydalı təcrübə oldu. Mətbuatda işləmək adamın gözünü açır. Sərvaxt öyrədir. Müasir həyatı, hadisələri diqqətlə və vaxtında izləməyə çağırır. Sözə qənaət etməyə, yazının həcminə yox, kəsərinə fikir verməyə alışdırır".

Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində Mir Cəlalın şəxsi fondunda saxlanan 2 oktyabr 1952-ci ildə yazılmış "Avtobioqrafiya"da göstərilir: "1931-ci ilin sonunda Kazandan qayıtdım və aspiranturaya daxil oldum". Yenə həmin mənbədə və 6 mart 1947-ci ildə yazılmış digər tərcümeyi-halda da gənc aspirantın 1932–1935-ci illərdə "Kommunist" və "Gənc işçi" qəzetlərində işə aldığı bildirilir.

"Tələbkar müəllim" məqaləsində yazdığı kimi, Mir Cəlala qəzetin məktublar şöbəsində – dəqiq adı ilə deyilərsə, "Zəhmətkeşlər şöbəsi"ndə müxbir olan kimi oxucu məktubları ilə iş tapşırılır: "Birinci gün şöbə müdiri mənim qabağıma 20–30 məktub tökdü:

– Müxbirlər yazıb – dedi – bunlardan seç, lazımlılarını düzəlt.

Məktəbdən, klubdan, divar qəzetindən, dram dərnəyindən bəhs edən bu məktubların çoxu indi də yadımdadır. Biri uzun, biri qısa kağızlarda, biri iri, biri xırda xətt ilə, biri nəzakətli sözlə, biri, az qala, "müzür ünsürlərə" söyüş sözləri ilə başlanırdı.

Mən bunların məzmunundan lazımi nə varsa götürür, doğranmış coğrafiya xəritəsinin ağ üzünə yazır, şöbə müdiri üçün hazırlayırdım. Şöbə müdiri mənim hazırladıqlarıma baxıb bəyənmədi:

– Uzun yazmısan!

– Mən yazmamışam, müxbirlər yazıb!

– Sən onlara baxma, bu on iki səhifəlik məktubdan yarım səhifə çıxarsan, bəsdir! Faktın özü kifayətdir. Artıq söz yazma! "Ayın filanında Gədəbəydə yeni tikilmiş klubun rəsmi – guşadı oldu!" – Vəssalam! Belə düzəlt!"

Maraqlıdır ki, on aya qədər davam edən bu çətin iş onu bezdirmir. Və günlərin birində: "Oktyabr ayı, pambıq yığımının qızğın vaxtı idi. Redaksiyada "Yaxşı oçerk uğrunda" müsabiqə elan etdilər. Hamı yazdı. Mən də birini yazdım. Müsabiqə materialları hələ saf-çürük edilməmiş, səhər qəzeti açanda iki sütunda çap olunmuş yazımı gördüm: "Qələbənin açarı!". O gün sevincimin həddi-hüdudu yox idi".

Bu deyilənlərdən aydın olur ki, "Qələbənin açarı!" məqaləsi də 1932-ci ildə dərc edilib. Amma müəllifin qeyd etdiyi məqalənin dərc tarixi 1931-ci ilin 26 noyabrına təsadüf edir. "Kommunist"in 274-cü sayında yer alan məqalə təsdiqləyir ki, böyük ədibin "Kommunist" qəzetində rəsmi fəaliyyətə başlaması 1932-ci il yox, 1931-ci ildə olmuşdur.

Bir sıra mətbuat orqanlarında dərc edilən məqalələrdə onun "Kommunist" qəzetində "şöbə müdiri" vəzifəsində çalışdığı da yazılır. 6 mart 1947-ci ildə yazılmış "Avtobioqrafiya"sında da belə qeyd görürük. Mir Cəlalın "Gənc işçi" qəzetində "məsul katib" vəzifəsində çalışdığını təsdiqləyən vəsiqə də arxivdə saxlanılır. Yenə həmin arxivdə saxlanan "Qulluqçunun haqq-hesab dəftərçəsində" isə "Gənc işçi" qəzetində ona "məsul katib və redaktor müavini" vəzifəsinin də həvalə olunduğu bildirilir. Amma təəssüf ki, böyük ədibin arxiv materiallarında "Kommunist"ə aid belə sənədlərə rast gəlmədik, lakin bu, onun qəzetdəki fəaliyyətinə zərrə qədər də kölgə salmır. Bu illərdə (1931–1932) "Kommunist" qəzetində 7 məqaləsi dərc olunmuşdur.

Bir məqam da diqqət çəkir. Mir Cəlalın "Kommunist" qəzetində çalışdığı illərdə bu qəzetdə dərc edilən məqalələrin sayı niyə



azdır? Birincisi, o zaman qəzetdə məqalə müəlliflərinin tam adlarının göstərilməməsi bir ənənəyə çevrilmişdi və bu üslubdan Mir Cəlal da istifadə edib. Qəzetin 1931-ci ildə nəşr edilmiş saylarında dəfələrlə M, M.C., M.P. imzalarına rast gəlməkdəyik. Hətta qəzetin 19 oktyabr 131-ci il sayının 3-cü səhifəsində bu imzaların hər üçünün qoyulduğu 3 məqalə var. Bu nəticəyə gəlmək olar ki, Mir Cəlalın "Kommunist" qəzetində çalışdığı illərdə burada dərc edilən məqalələrin sayı biblioqrafik nəşrlərdə göstərildiyindən çoxdur.

İkincisi, biblioqrafik nəşrlərə istinad edərək "Kommunist" qəzetində 7 məqaləsi dərc olunmuşdur" faktını qəbul edəsi olsaq belə, bu say azlığı məktublar şöbəsindəki gərgin iş ilə əlaqələndirilməlidir. Burada özünün də nəzərə çatdırdığı bir qeyd diqqətdən yayınmır: "Məktublar üzərində mənim çətin işim davam edirdi". Bu çətinliyin nədən ibarət olduğunu anlatmaq üçün qəzetin 9 yanvar 1931-ci il tarixli sayında dərc edilmiş bir məlumata diqqət edək: "Redaksiyaya gündə 250–300-ə qədər işçi və kəndlilər gəlib öz dərd və ehtiyaclarını söyləyir və qəzetdə yayılmasını tələb edirlər". Yaxud tədqiqatçı alim Elmar Məhərrəmovun yazdığı kimi: "1927-ci ildə təkcə kəndli müxbirlərindən hər gün orta hesabla 70–100 məktub alınırdı; 668 fəhlə müxbiri, 850 kəndli müxbiri qəzetlə daimi əməkdaşlıq edirdi". Heç şübhə etmirik ki, bu ağır işin "Məktublar şöbəsi"nin mətbəxində həyata keçirildiyini nəzərə alsaq, bir əməkdaşın nə qədər gərgin işlədiyini görə bilirik.

Üçüncüsü, Mir Cəlalın Bakı şəhərindəki "Ədibin evi" və Gəncə şəhərindəki ev-muzeyində saxlanılan, amma mətbuatda çap olunmayan məqalələrinin əlyazma və makinada yazılmış nüsxələri, bu illərdə dövri mətbuatda və dərsliklərdə çap olunmuş bədii əsərləri – şeir, hekayə, novella və oçerklər də onun məhsuldar olduğunun göstəricisidir. Həm də məktublar şöbəsində gərgin çalışan Mir Cəlalın məqalələri aktuallıq baxımından da dəyərli olub. Həcmcə kiçik olan "Kolxozların təchizində plansızlıq" (1932-ci il, 11 oktyabr) adlı yazı Bərdə rayon kooperativ idarəsinin yarıtmaz fəaliyyətini alt-üst edən tənqidi məqalə idi.

Mətbuatı "gözəl tərbiyə məktəbi" adlandıran ədib "Kommunist"dən sonra "Gənc işçi" qəzetində (bəzi mənbələrdə müxbir, bəzilərində isə məsul katib olduğu bildirilir) fəaliyyət göstərmişdir. Ədib sonrakı həyat yolunu daha çox elmi araşdırmalara və müəllimliyə bağlasa da, ömrünün sonuna kimi bir gün belə mətbuatdan ayrılmamışdır. Mir Cəlalın "Yeni fikir", "Zəhmət", "Maarif yolu", "Gənc bolşevik", "Pioner işçisi", "Kommunist tərbiyəsi uğrunda", "Allahsız", "Gənc işçi", "Ədəbiyyat qəzeti", "İnqilab və mədəniyyət", "Şərq qadını" və s. mətbu orqanlarda dövrünün ən aktual məsələlərinə həsr edilmiş 100-dən çox məqaləsi dərc edilmişdir. Yeri gəlmişkən, onu da demək lazımdır ki, bu məqalələrin 40-a yaxını "Kommunist" qəzetində dərc edilənlərdir.

Mətbuatın cəmiyyətdəki rolunu yüksək dəyərləndirən böyük ədib onu da bildirir ki, "Qəzet işində gördüyüm yaxşı cəhətlərdən biri də xalq arasında hörmət, nüfuzdur. Bizim xalq elə tərbiyə olunmuşdur ki, mətbuata, doğrudan da, müqəddəs, həqiqət, ədalət carçısı kimi baxır. Hara gedirsən, kim ilə rastlaşırsan, mətbuat nümayəndəsi olduğunu biləndə xüsusi hörmət görürsən".

Nəhayət, jurnalistika elmi Mir Cəlalın publisistik yaradıcılığını dərindən araşdırmalıdır. Çünki onun bədii və elmi yaradıcılığında olduğu kimi, publisistikasında da milli ideallara, Vətənə və xalqına böyük sevgi və vurğunluq aparıcı yer tutur.

Mir Cəlal ədəbiyyatımızda hekayələr ustası, xalqın həyat tərzini bütün incəlikləri ilə tərənnüm edən romanların yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini araşdıran tədqiqat əsərlərinin müəllifi olduğu kimi, publisistikası ilə də mətbuat tariximizdə önəmli yer tutur. Ədəbiyyatımızda partiyalılığı xəlqiliyin kölgəsində qoymuş Mir Cəlalın jurnalistik fəaliyyəti də sovet sisteminə yox, xalqa, onun milli-mənəvi dəyərlərinə xidmətə həsr edilib.

***Namiq ƏHMƏDOV,***
***Əməkdar jurnalist***

# “Xalq qəzeti”nə təbriklər

## Xalqımızın əsrdən uzun söz yaddaşı

**“Xalq qəzeti”nin 105 yaşa çatması onun zaman-zaman fərqli baxışların təmsilçiləri olmuş bir neçə nəsil kollektivinin ortaq hədəfinin – Azərbaycan coğrafiyasına və milli-mədəni tərəqqiyə bağlı fəaliyyətinin bir əsrlik davamlılığının, tarixən, nadir sayılacaq göstəricisidir. “Xalq qəzeti”nin 100 yaşa – çatması ümummədəni bir hadisə, Azərbaycan jurnalistikasında diqqətçəkən bir tarixdir.**



Milli mətbuatımızın yaranmasından 44 il – sonra ərsəyə gəlmiş bu qəzetin fəaliyyətinin bugünədək davam etməsi və 30 min 589 sayının işıq üzü görməsi onun milli jurnalistikamızda ən üzunömürlü və ən çox nömrəsi işıq üzü görən bir dövri nəşr olduğundan xəbər verir. 3 epoxadan keçib gələn 1 əsrdən yaşlı bir qəzetin varisi olmaq şərəfi “Xalq qəzeti”nin indiki kollektivinə nəsib olub. Ümummilli qəzetimizin 105 yaşının tamam olması təkcə bir redaksiya kollektivinin, milli mətbuatımızın deyil, bütövlükdə, xalqımızın həyatında, ictimai fikir və mədəni tərəqqi tariximizdə əlamətdar hadisədir.

Fəaliyyətinin üçdə ikisindən çoxu sovet-kommunist epoxasının sərt, milli təmayülə qısqanc tələbləri çevrəsində keçməsinə baxmayaraq, bu qəzet mümkün olan hər hansı forma və məzmunda Azərtbaycan idealına xidmət göstərmiş, milli məfkurəli ziyalılarımızın xalqla mətbu ünsiyyətinin gur tribunası olmuşdur. Torpaqlarımızın bütövlüyü, demokratiya və dövlət müstəqilliyimizin bərpası torpaqlarımızın bütövlüyü və demokratiya uğrunda mübarizədə qəzetin kollektivi redaksiya daxilində daim yaşadılmış milli təmayülü bayrağa çevirərək ümumxalq hərəkatının ön xəttinə çıxara bilmişdir.

“Xalq qəzeti” dövlətçiliyimizin qorunması və bərpası prosesinin fəal iştirakçısı olmuş, suverenliyimizin ilk günlərindən isə fəaliyyətini ümummilli, strateji hədəflərin gerçəkləşdirilməsinə səfərbər etmişdir.

Milli mətbuatımızın və redaksiyanın ən yaxşı ənənələrini yaşadan və müstəqiliyimizin bərpasının bəxş etdiyi söz azadlığı dəyərləri ilə zənginləşdirən “xalq qəzetçiləri” bu nailiyyətə və qismətə görə alqışlanmağa layiqdir.

Ölkəmizin avanqard qəzeti olaraq ötən 105 ildə həyatımızın bütün sahələrində baş verən yenilikləri, dövlətin və ictimai fəaliyyətin əsas yönlərini, milli-mədəni varlığımızın sevindirici fakt və hadisələrini, yurdumuzdan görünən dünyanı və xarici aləmdə əks-səda yaradan Vətənimizi, eləcə də tariximizin “ağ ləkə”lərinə çevrilmiş arzuolunmaz halların səs-sorağını, əhatəli və canlı salnaməsini yaradan yeganə mükəmməl mətbuat orqanı olaraq “Xalq qəzeti” ümummilli dəyər və önəm daşıyan mötəbər bir informasiya-bilgi mənbəyidir.

Bütun bu qeyd edilənlər bir daha sübut edir ki, “Xalq qəzeti” xalqımızın taleyində və yaddaşında dərin, silinməz izlər qoymuş, zamanın sınağından üzüağ çıxmış milli mətbuat vasitəsi, ötən bir əsrin sistemli söz saxlancıdır. Bu dərin və sağlam əsaslar qəzeti növbəti əsrin onilliklərinə inamla aparacaq.

Sonda Azərbaycanın yaradıcı ziyalıları, bədii söz adamları və öz adımdan qəzetin milli ideala bağlı, cəmiyyəti nikbinliyə, sabaha inama, çağdaş quruculuğa yönləndirən kollektivini səmimi təbrik edirəm. Arzu edirəm ki, qəzet redaksiyası əsrdən uzun dövrü əhatə edən yaradıcılıq ənənəsini, qəzetçilik uğurlarını bundan sonra da ilham və həvəslə davam etdirib zənginləşdirsin.

***Nizami CƏFƏROV,***
***Atatürk Mərkəzinin rəhbəri, akademik***

## Milli mətbuatımızın canlı əfsanəsi

**Azərbaycan maarifçilik və dövlətçilik məfkurəsinin geniş yayılması, ölkəmizin bəşəri tərəqqiyyə qovuşması kimi tarixi bir missiyanı fəaliyyət göstərdiyi bir əsrdən uzun müddətdə şərəflə davam etdirən “Xalq qəzeti”nin 105 yaşının tamam olmasını ölkənin elmi-pedaqoji ictimaiyyəti də ümummədəni hadisə kimi böyük sayğı ilə qarşılayır.**



Xalqımızın ictimai fikir xəzinəsini zənginləşdirən, milli mətbuatımızın və jurnalistikamızın inkişafında əvəzsiz töhfələri olan bu öncül ictimai-siyasi nəşr ötən müddətdə özünü ümumxalq söz tribunası kimi təsdiq etmişdir. Redaksiyanın peşəkar və milli ideallara bağlı mövqeyi, qəzetin respublikanın mədəni-sosial həyatında baş verən yenilikləri xalqa yüksək ictimai məzmunda çatdırması, bir-birindən maraqlı rubrikaları, sərrast və aydın üslubu onu gününmüzdə də ölkənin bayraqdar mətbu nəşr kimi tanıdır.

Ötən 105 ildə daim xalqın yanında olan “Xalq qəzeti” müstəqillik illərində daha da inkişaf edərək fəaliyyətini XXI əsrin dəyişən tələblərinə uyğun şəkildə qurmuşdur. Bu gün də milli mətbuatımızın önündə gedən “Xalq qəzeti” öz fəaliyyətində ən son müasir texnologiyaları tətbiq etməklə cəmiyyətə obyektiv və operativ məlumatlandırma xidməti göstərir.

Redaksiyanın apardığı vətənpərlik və maarifləndirmə işi, davamlı analitik təhlillər və aktual mövzulu publisistik yazılar ictimai rəyin formalaşmasında önəmli rol oynayır. “Xalq qəzeti” baş verən hadisələrə, zamanın çağırışlarına həssaslığı ilə internet əsrində də avanqard mövqeyini qoruyub saxlayır.

Milli mətbuatımızın canlı əfsanəsi olan “Xalq qəzeti”nin yaradıcı kollektivini 105 illik yubiley münasibəti ilə elmi-pedaqoji ictimaiyyət adından səmimi təbrik edirik. İnanırıq ki, zəngin ənənələr üzərində tarixinin ikinci əsrini yaşayan qəzet bundan sonra da xalqa sözlə xidmətini davam etdirəcək, müstəqil Azərbaycanın qalibiyyətli tarixi yürüşünü əks etdirən parlaq güzgü olacaq.

***Cəfər CƏFƏROV,***
***ADPU-nun rektoru, professor***

## Öyünclü media tarixi

**Qəzetimizin 105 illik yubileyi münasibətilə ayrı-ayrı kollektivlərdən, müxtəlif peşə sahiblərindən redaksiyamıza çoxsaylı təbriklər daxil olur. “Azərcell Telekom” MMC-dən aldığımız teleqramda deyilir:**

“Azərcell Telekom” MMC-nin kollektivi ölkəmizdə mobil rabitənin inkişafına daim informasiya dəstəyi vermiş “Xalq qəzeti”nin 105 illik yubileyini ölkəmizin media tarixinin önəmli hadisəsi kimi qəbul edir. Anadilli medianın ikinci bir nəşrinə bu qədər müddətdə davamlı olaraq işıq üzü görmək qismət olmayıb. Rabitəçilər bu ümummədəni dəyərin öyüncünü sizinlə birlikdə yaşayır.

Ən qocaman və daim mətbuatımızın önündə gedən “Xalq qəzeti”nin kollektivini ölkənin mobil rabitəçiləri adında səmimi təbrik edir, redaksiyay yeni yardıcılıq uğurları arzu edirik”

***XQ***

## Azərbaycan turizmi: İnkişaf indeksinin müqayisəli təhlilləri



**Dünya İqtisadi Forumunun dərc etdiyi “Səyahət və turizmin inkişaf indeksi”nə nəzər yetirdikdə, Azərbaycanın bir neçə pillə öndə olduğunu görürük. Bu indeks göstəricilərinə əsasən, 119 dövlət arasında 56-cı yerdə qərarlaşan ölkəmiz əvvəlki hesabatla müqayisədə 7 pillə irəliləyib.**

Dövlət Turizm Agentliyinin (DTA) 6 aylıq məlumatında bildirilir ki, ötən ilin sonuna aid hesabatda Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələr arasında ən yüksək nəticəyə malik 2-ci ölkə kimi Azərbaycanın 4 komponent üzrə mövqeyində əhəmiyyətli dərəcədə irəliləmə müşahidə olunub. Qeyd edilən istiqamətdə ölkəmizin daha yaxşı inkişaf göstəricilərinə malik olması məqsədilə DTA-nın təşəbbüsü ilə 2022-ci ilin oktyabr ayında Azərbaycanın Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının “Turizmin inkişafı” işçi qrupu yaradılıb. Aidiyyəti dövlət qurumları və biznes subyektlərindən ibarət olan bu qrup dövlət və özəl sektor qurumlarının fəaliyyətini əlaqələndirir. Qrupun mandatına uyğun olaraq, fəaliyyət planı çərçivəsində Dünya İqtisadi Forumunun dərc etdiyi “Səyahət və turizmin inkişaf indeksi”ndə ölkəmizin mövqeyinin yüksəldilməsi yönündə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Sahə mütəxəssisləri hesab edirlər ki, ölkəmizin turizm sektorunda inkişaf indekslərinin beynəlxalq indekslərə görə müqayisəli təhlili və bu sahədə müəyyən təşəbbüslərin həyata keçirilməsi olduqca vacibdir. Turizmin inkişafına koordinasiyalı şəkildə nail olmağın zəruriliyini nəzərə alsaq, dövlət qurumları ilə özəl sektorun proseslərə birgə cəlb edilməsi yüksək nailiyyətlər qazanmağa imkan yaradır.

**“Turizmin inkişafı” işçi qrupunun hazırkı fəaliyyəti necə qiymətləndirilir?**

**Mövzu ilə bağlı XQ-nin suallarını şərh edən turizm üzrə ekspert Ruslan Quliyev bildirdi ki, İşçi qrupunun hazırkı fəaliyyəti böyük önəm kəsb edir.**

Bu sahədə dövlət qurumları və özəl sektorun əməkdaşlığının koordinasiyalı şəkildə aparıldığının önəmini qeyd edən ekspert dedi:

– Hər iki sektorun birgə əməkdaşlığı nəticəsində təhlillər bu yöndə müəyyən irəliləyişlərə səbəb olacaq. Hesabatlar və müqayisəli analizlər qısa bir zamanda turizmin inkişaf indeksində ölkənin mövqeyinin yüksəlməsinə xidmət edir. İşçi qrupu səyləri daha da artırmalıdır. Burada ən vacib məsələ bölgələrdə turizm imkanlarına diqqəti yönəltməkdir. Eləcə də yeniliklərlə bağlı davamlı çıxışlar olmalı, ictimaiyyət mütəmadi məlumatlandırılmalıdır. Beynəlxalq reytinq üzrə ölkəmizin mövqeyinin yaxşılaşdırılması istiqamətində fəaliyyət planları hazırlanmalıdır. Qrupun ötən dövrdəki fəaliyətinə nəzər salsaq, bu müddət ərzində bir neçə görüşlər keçirilib, müxtəlif addımlar atılıb.

**Azərbaycanda turizmin inkişafında qrupun fəaliyyətinin üstünlüklərini qeyd edən ekspert Ceyhun Aşurov bildirdi:**

– Qrupun fəaliyyəti bu sahədə irəliləyişlərin olmasına təkan verir. Əsas diqqət inklüzivliyin artırılmasına yönəldilib. Tərkibinə 40-dək ekspertin daxil olduğu İşçi qrupu mütəmadi görüşlər keçirməklə ölkə turizminin inkişaf vəziyyətini qiymətləndirir. Onlardan 12-si bilavasitə turizm sektorunda aparıcı olan özəl şirkətlərin və hotellərin təmsilçiləridir. Müqayisəli təhlillər apararaq, digər ölkələrdə qabaqcıl tədbirlər və tətbiqlərin vəziyyətini öyrənmək qrupun məqsədləri sırasındadır. Bunun nəticəsidir ki, müxtəlif təklif və təşəbbüslərin hazırlanmasında qrup yaxından iştirak edir. Qonşu ölkələrdə və regionda turizmlə bağlı baş verən hadisələrin yaxından izlənilməsi və onların ölkəmizdə tətbiqi baxımından qrupda müzakirələr aparılır. Fəaliyyət göstərdiyi müddətdə İşçi qrupu çoxsaylı işlər görüb və bu proses davam etməkdədir. Qrup təhlillər əsasında əldə etdiyi nəticələrlə bağlı turizm sektorunu məlumatlandırır. Görülən işlər nəzarətdə saxlanılmaqla, müəyyən istiqamətdə yönləndirilir. Ölkəmizin turizm potensialının beynəlxalq indekslərlə müqayisəli təhlilinin aparılması və bu sahədə təşəbbüslərin həyata keçirilməsi olduqca müsbət nəticələr verir. Bu gün gözlədiyimiz nəticəni əldə etmək üçün qrup aktiv çalışmalıdır. Lokal problemlərlə regional hadisələr arasında əlaqəni müəyyən etməlidir ki, biz turizm trendlərindən çox da geri qalmayaq.

**Bəs “Turizmin inkişafı” işçi qrupunun fəaliyyətə başladığı vaxtdan bəri bu sahənin inkişafı istiqamətində hansı işləri görüb?**

**İşçi qrupunun rəhbəri, Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov mövzu ilə bağlı XQ-nin sorğusunu cavablandıraraq söylədi:**

– İşçi qrupunun fəaliyyət planı çərçivəsində Dünya İqtisadi Forumu tərəfindən dərc olunan “Turizm və səyahətin inkişafı indeksi”ndə ölkəmizin mövqeyinin yüksəldilməsi naminə tədbirləri davam etdiririk. Bu ilin fəaliyyət planı 15 əsas blok və 44 indikator üzrə 98 tədbirin icrasını əhatə edir. İndeksə uyğun olaraq, planda biznes mühiti, təhlükəsizlik və mühafizə, insan resursları və əmək bazarı, informasiya və kommunikasiya texnologiyalarına hazırlıq, səyahət və turizmin prioritetliyi, səyahət və turizmə açıqlıq, qiymət rəqabətliliyi, hava nəqliyyatı infrastrukturu, quru və liman infrastrukturu, turizm xidməti və infrastrukturu, təbii resurslar, mədəni resurslar, ekoloji davamlılıq, səyahət və turizmin sosial iqtisadi təsiri, səyahət və turizm tələbinin davamlılığı kimi əsas bloklar üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Azərbaycan Dünya İqtisadi Forumunun dərc etdiyi “Səyahət və turizmin inkişafı indeksi”nə əsasən, əvvəlki hesabatla müqayisədə 7 pillə irəliləyərək, 119 ölkə arasında 56-cı yerdə qərarlaşıb. MDB ölkələri arasında ən yüksək nəticəyə malik 2-ci ölkə kimi Azərbaycanın 4 komponent üzrə göstəricilərdə mövqeyində əhəmiyyətli dərəcədə irəliləmə müşahidə olunub. Ötən ilin sonuna təqdim edilən məlumatlar əsasında hazırlanan hesabatda “Uyğun mühitin mövcudluğu” komponenti üzrə biznes mühiti, təhlükəsizlik, sağlamlıq və gigiyena, insan resursları və əmək bazarına dair göstəricilər, “Səyahət və turizm siyasəti və uyğunluq şərtləri” komponenti üzrə beynəlxalq açıqlıq və qiymət rəqabətliliyi göstəriciləri, “Səyahət və turizm tələbinə təsir edən amillər” komponenti üzrə mədəni resurslara dair göstərici və “Səyahət və turizmin dayanıqlılığı” komponenti üzrə ekoloji davamlılıq və sosial-iqtisadi dayanıqlılıq göstəricilərində yüksəlmə qeydə alınıb. Alt-indikatorlar üzrə səyahət və turizmə dair statistik məlumatların beynəlxalq qurumların məlumat bazalarına mütəmadi ötürülməsinə dair göstərici üzrə Azərbaycan 2021-ci ildə olduğu kimi, bu il də mümkün ən yüksək nəticə ilə 1-ci pillədə qərarlaşıb. Bununla yanaşı, Qlobal Terrorizm İndeksi üzrə nəticələrə əsasən, ölkəmiz əvvəlki hesabat üzrə mövqeyini 34 pillə yaxşılaşdıraraq, ən təhlükəsiz ölkələr sırasında 1-ci pilləyə yüksəlib. Əlavə olaraq, gəlmə turizmində mövsümilik amili üzrə 39 pillə, illik səyahət və turizm məlumatlarının əhatəliliyi göstəricisi üzrə 28 pillə, Ümumdünya İrs Siyahısına daxil olan təbii nümunələrin sayına görə 29 pillə, rəqəmsal ödənişlər və 3G mobil şəbəkənin əhatə dairəsi göstəricilərində isə müvafiq olaraq 18 və 32 pillə irəliləyiş qeydə alınıb.

Qeyd olunanlar deməyə əsas verir ki, işçi qrupunun fəaliyyəti ölkə turizminin inkişaf aspektlərinə müsbət təsirini göstərməkdədir. Dövlət qurumları və özəl sektorun bu yöndə koordinasiyalı iş planı Azərbaycanın reytinq göstəricilərinin daha da irəliləməsinə öz bəhrəsini verəcək.

***Ceyhun ALIŞLI***
***XQ***

## Sumqayıtlı məzunların parlaq uğuru



**Hazırda sosial gündəmi zəbt edən mövzulardan biri də ali məktəblərə tələbə qəbulunun nəticələridir. Məktəb kollektivləri, ailələr, tələbə adını qazanan abituriyentlər imtahanların və ixtisas seçiminin nəticələrini qızğın müzakirə edirlər. Sevinən, fərəhlənən kim, məyus olan kim?...**

Media subyektlərində də bu mövzu aktuallıq kəsb edir. Müxtəlif hesabat və sosial şəbəkə paylaşımlarından göründüyü kimi, bu il də tələbə qəbulunda Abşeron–Xızı Regional İdarəsinin tabeliyində olan Sumqayıt şəhər məktəbləri ön sırada qərar tutublar. Elə gənclik şəhərinin ümumtəhsil müəssisələri üzrə ali məktəblərə qəbul barədə ilkin məlumatlar da bunu təsdiq edir. Bu il Sumqayıt məktəblərini 3879 şagird bitirib ki, onların da 2543 nəfəri, başqa sözlə, 65,6 faizi tələbə adını qazanıb. Özlüyündə çox yaxşı göstəricidir. İmtahan verənlərin 242 nəfəri 600 baldan, 88 nəfəri isə 650 baldan yuxarı nəticə göstərib.

Məlum olduğu kimi, bu il Sumqayıt şəhərinin 75 yaşı tamam olur. Ayrı-ayrı sahələrdə qazanılan nailiyyətlər bu yubileyə həsr edilir. Bu baxımdan şəhərin ən “qocaman” təhsil ocağı, 1946–1947-ci tədris ilində fəaliyyətə başlamış indiki gimnaziya (əvvəllər 2 nömrəli məktəb idi) da bayramı əliboş qarşılamır. Bu qabaqcıl təhsil ocağı 1952-ci ildən mərkəzi küçədəki yaraşıqlı binada yerləşir. Gimnaziyanın şagirdləri hər il keçirilən fənn olimpiadalarında yüksək nəticələr əldə edirlər. Buradan pərvazlanıb müxtəlif ali məktəblərdə oxuyan tələbələrin çoxu Prezident təqaüdçüsü olub.

Xatırlayırıq ki, inişil Təbiət Elmləri Təmayüllü Gimnaziyanın 75 illik yubileyində çıxışı zamanı Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bu təhsil ocağının uğurlarının davamlı olacağına inamını ifadə etmişdi. İndi budur, gimnaziyanın məzunlarının Sumqayıt şəhərinin 75 illik yubileyinə töhfəsi 100 faizlik nəticədir. Flaqman təhsil ocağını bu il bitirən 70 məzundan 3-ü təhsilini xarici ölkələrdə davam etdirmək üçün seçilib. Daha 1 məzun olimpiadada qalib gəldiyi üçün ali məktəbə imtahansız qəbul olunub. Gimnaziyanın digər 66 məzunu isə təhsilini Azərbaycan universitetlərində davam etdirəcək. Onlardan 48-i 600-dən çox bal toplayaraq yüksək nəticə göstərib. Ümumilikdə, məktəb üzrə orta bal 612 olaraq qeydə alınıb ki, bu da gimnaziyanın yüksək təhsil səviyyəsini bir daha təsdiq edir.

Qürurverici faktdır ki, Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəb də qəbul sayına görə 100 faiz nəticəyə nail olub: bu təhsil ocağını bitirən 111 məzunun hamısı tələbə adını qazanıb. Nizami Gəncəvi adına Texniki və Təbiət Elmləri Liseyinin məzunu olan 39 nəfər də eyni uğura nail olub. Bütöv siniflərin maksimum nəticə ilə sevindiyi məktəblər də az deyil. Humanitar və Təbiət-Riyaziyyat Təmayüllü İstedad Liseyinin məzunları da hamılıqla tələbə adına layiq görülüblər.

Ötən il Sumqayıtdakı İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəb şəhərin təhsil tarixində bir ilkə imza atmışdı: oranı bitirən 3 sinfin bütün şagirdləri universitetlərə qəbul olunmuşdu. Bu il isə eyni nəticəni Polad Həşimov adına 28 nömrəli məktəbin məzunları təkrarlayıblar. Məktəbi 117 şagird bitirib, 86 nəfər tələbə adını qazanıb ki, onlardan da 60 nəfəri 3 eyni sinfin məzunudur.

**Qəhrəman general-mayor Polad Həşimovun 80-ci illərdə şagirdi olduğu öncül təhsil müəssisəsinin direktoru Araslan Rzayev bizimlə söhbəti zamanı dedi:**

– Təhsil sahəsi dövlətin strateji istiqamətlərindən biridir. Hər bir ölkənin uğurlu inkişafını təhsilli vətəndaşları müəyyən edir. Bu baxımdan fəxr edirik ki, Azərbaycanın çiçəklənməsində bizim məzunların da əməyi var. Ən müxtəlif sahələrdə çalışan yetirmələrimiz üzümüzü daim ağ edirlər. Təkcə bu il 14 məzunumuz fərqlənmə attestatı alıb. Qəbul sınaqlarından alnıaçıq çıxan məzunlarımız arasında ən yüksək balla tələbə olanlar Nurəddin Fərzəliyev (665), Gülbəs Kərimova (657), Məryəm Ağaxanova (646), Aytac Hətəmova (636), Nigar Həsənova (627), Nüsrət Ağazadə (632) və Hüseyn Əliyevdir (612). Onlar ölkənin ən prestijli universitetlərinə daxil olublar. Əlbəttə, bu, bütün pedaqoji kollektivimizi ürəkdən sevindirir. Fəxr edirik ki, Sumqayıtın 75 illiyini belə nailiyyətlə qarşılayırıq.

**Parlaq nəticə göstərən Nurəddin Fərzəliyevin dedikləri:**

– Ali məktəblərə qəbulun nəticələri göstərdi ki, Sumqayıt yenə də öz ənənəsinə sadiqdir. Yüksək balla Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olmağıma hədsiz sevinirəm. Şadam ki, valideynlərimin, müəllimlərimin etimadını doğrulda bildim, onların zəhməti bada getmədi. Gələcəkdə bilikli bir iqtisadçı kimi doğma şəhərimizdə çalışmağı arzulayıram. Fürsətdən istifadə edərək, tələbə adını alan bütün abituriyentləri təbrik edirəm. Daha yüksək zirvələrə doğru irəli!

Onu da qeyd edək ki, gənclik şəhərindəki yeganə ali təhsil ocağında – Sumqayıt Dövlət Universitetində (SDU) də builki qəbulun nəticələri fərəhlidir. Rektor Rüfət Əzizovun bildirdiyinə görə, 2024–2025-ci tədris ili üçün tələbə qəbulu nəticələri əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşıb: “Builki qəbulda, ümumilikdə, 1499 tələbə universitetin müxtəlif ixtisaslarına qəbul olub ki, bu da keçən ilki 1374 tələbə ilə müqayisədə 9 faiz artım deməkdir. Bu il ən yüksək nəticə 633,2 bal olub, keçən il isə bu göstərici 551,9 bal idi. Orta qəbul balı da yüksələrək 326-ya çatıb (keçən il 290 idi). Ən diqqət çəkən məqam isə 500-dən yuxarı bal toplayan tələbələrin sayının artmasıdır. Belə ki, cari tədris ilində bu nəticəni göstərən tələbələrin sayı 20-yə çatıb ki, bu da keçən ilki 1 tələbəyə nisbətdə 20 dəfə artım deməkdir”.

Göründüyü kimi, Sumqayıt şəhərinin bilik və təcrübə xəzinəsi sayılan SDU-nun uğur göstəriciləri orta ümumtəhsil məktəblərinin artan göstəriciləri ilə adekvatdır.

Tələbə adınız mübarək!

***Əli NƏCƏFXANLI***
***XQ***

# IDEA-nın Qəbələ və Şahdağ layihələri



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva avqustun 29-da Qəbələdə "Gənc arıçı" layihəsinin iştirakçıları ilə görüşüb.**

Leyla Əliyeva görüşdə gənc arıçılarla səmimi söhbətlər edib, onların fəaliyyəti ilə maraqlanıb, arıçılıq sahəsindəki ilk təcrübələri və məhsuldarlıqla bağlı təəssüratlarını dinləyib. Öz növbəsində, gənc arıçılar Leyla Əliyevaya göstərdiyi diqqət və dəstəyə görə minnətdarlıqlarını bildiriblər. Onlar süzdükləri ilk balı xüsusi qablaşdırmada Leyla Əliyevaya hədiyyə ediblər.

Qeyd edək ki, 2021-ci ildən başlayaraq, IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin növbəti mərhələsi çərçivəsində Qəbələ rayonunda 20 gənc arıçı dəstəklənib və onlar artıq öz ilk məhsullarını əldə etməyə başlayıblar.

Məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılıq təsərrüfatının ekosahibkarlıq növü kimi yayılmasını təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahını yaxşılaşdırmaq olan layihə çərçivəsində seçilən 20 gəncə peşəkar mütəxəssislərin iştirakı ilə bir aylıq təlim keçirilib. Təlimləri başa vuran gənclər arıçılıq təsərrüfatı üçün lazımi arı ailəsi və pətəkləri, arıçı geyimi, balsüzən aparat və digər ləvazimatlarla tam təchiz olunublar və onlara səmərəli fəaliyyətləri istiqamətində lazımi şərait yaradılıb.

Gənc arıçılar, həmçinin məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satışın təşkili dəstəyi ilə təmin ediləcəklər. Bu addımlar bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlı bal istehsalı mərhələsinə çatması üçün gənc arıçıların öz məhsullarını geniş müştəri bazarına çıxarmalarına və satışın səmərəli təşkilinə xidmət edəcək.

**Avqustun 29-da Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Şahdağ Milli Parkının İsmayıllı bölməsində nadir heyvanların vəhşi təbiətə buraxılması mərasimi keçirilib.**

Mərasim zamanı nəcib marallar, Dağıstan turu və tirəndazlar xüsusi seçilmiş təbii ərazilərə buraxılıb.

Qeyd edilib ki, 2022-ci ildə Leyla Əliyevanın iştirakı ilə Şahdağ Milli Parkında xüsusi ayrılmış yerdə adaptasiya dövrü keçməsi üçün buraxılmış 4 nəcib maral populyasiya yolu ilə artaraq 10 başa çatıb. IDEA İctimai Birliyi tərəfindən bu populyasiyaya əlavə olaraq Bakı Zooloji Parkından daha 2 nəcib maral əraziyə köçürülərək onların ümumi sayı 12 başa çatdırılıb. Beləliklə, tədbir çərçivəsində 12 nəcib maral, eləcə də Bakı Zooloji Parkında çoxaldılaraq böyüyən 10 tirəndaz və 3 Dağıstan turu vəhşi təbiətə buraxılıb.

Diqqətə çatdırılıb ki, Bakı Zooloji Parkının əsas fəaliyyət istiqamətlərindən biri də Azərbaycanın nadir və nəsli kəsilməkdə olan fauna növlərinin çoxaldılması və sayının bərpa edilməsidir. Şahdağ Milli Parkında vəhşi təbiətə buraxılan heyvanlar da IDEA İctimai Birliyi, Bakı Zooloji Parkı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə layihəsi olan "Biomüxtəlifliyin inkişaf etdirilməsi" layihəsi çərçivəsində çoxaldılıb. Layihənin əsas məqsədi ölkəmizin nadir və nəsli kəsilməkdə olan fauna növlərini, o cümlədən Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmiş heyvanları çoxaldaraq, onların tarixi areallarını bərpa etmək üçün vəhşi təbiətə buraxılmasıdır.

Həmçinin bildirilib ki, IDEA İctimai Birliyinin uğurlu layihələrindən biri də "Zubrların Azərbaycana reintroduksiyası" proqramıdır. 2019-cu ildən etibarən Qafqazda nəsli kəsilmiş zubrun təbiətə qaytarılması üzrə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Zooloji Parkı və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən həyata keçirilən bu proqram çərçivəsində ölkəmizə Avropanın müxtəlif yerlərindən zubrlar gətirilir. Proqramın uğurlu icrası nəticəsində Azərbaycanda zubrların sayı artıq 70 başa çatmaq üzrədir.



Bu cür layihələr Azərbaycanın biomüxtəlifliyinin zənginləşdirilməsində mühüm rol oynayır. Layihənin təşkilatçıları Azərbaycan ictimaiyyətini nadir heyvanların qorunması, sayının artırılması və qanunsuz ovlanmasının qarşısının alınması istiqamətində fəal olmağa çağırır.

Ustad dərsləri

# Skott Trostun Hollivud təcrübələri

**Bu yaxınlarda ilk dəfə Bakıda olan Los-Anceles Mayzner İnstitutunun direktoru – aktyor, rejissor, ssenarist, prodüser Skott Trostun adı çəkiləndə göz önünə ilk gələn onun xoşbəxtcəsinə gülümsünən çöhrəsi, işıq, təskinlik dolu gözləri olur. Sanki o, dünyaya və sənətə kədəri, pislikləri, eqoizmi unutdurmaq, ümid, təsəlli vermək üçün gəlib. Tanınmış sənətkar bu yöndən sevilir, alqışlanır.**



Xəzərin sahilində yerləşən "YARAT" Müasir İncəsənət Mərkəzində Skott Trostla görüşdən mən də məmnun qaldım. Fürsətdən istifadə edib onun Bakı haqqında təəssüratlarını da öyrəndim:

– Bakı gözəl şəhərdir, təmizdir, insanları qonaqpərvərdir, – dedi. – Mən 4 gün Bakıda qalacağam. Onu da qeyd etməliyəm ki, Bakı tamaşaçıları yüksək sənət duyumuna malikdirlər.

Yaradıcılıq karyerasını Çikaqodakı "Goodman" teatr məktəbindən başlayan Skott Trost sənət yolunda ilk addımlarını belə xatırlayır:

– Lap erkən vaxtlarımda, 5 yaşım olanda anam məni aktyorluq məktəbinə yazdırdı. Sənət müəllimim Sandy Maisner idi. Onun tələbələri müxtəlif mükafatlara layiq görülüblər, aralarından "Oskar"a namizədlər də olub. Özüm indi aktyor texnikası üzrə tanınmış müəllim olmağımı ilk ustadımın adı ilə bağlayıram. Müəllimim deyirdi ki, mükəmməl aktyor olmaq üçün 20 il lazımdır. Həyatının 60 ilini aktyor yetişdirməyə həsr edən Maisner bu illər ərzində müxtəlif sistemləri dərs prosesinə tətbiq edib. Həmişə deyirdi ki, gerçəkliyin arxasınca getməyi bacaran aktyor mükəmməl ola bilər.

Skott Trostun iştirakı ilə ərsəyə gələn filmlər "Ulduz yolu", "Qatillər klubu", "Nüvə dan üzü", "Startrek: Dərin kosmos 9" (serial), "Bikini yayı", "İnternetə sevgi", "Dəbli Los-Anceles" (komediya), "Sən məni öldürürsən" və başqalarıdır. Bakıda verdiyi "ustad dərsləri"ndə Skott Trost uğurlu aktyor olmaq üçün gərəkli mühüm addımlar barədə sirləri də açdı. Azərbaycanın gənc kino işçiləri onu böyük maraqla dinləyirdilər. Hollivudda 25 il fəaliyyət göstərən Skott Trost gənclərə öz dəyərli məsləhətlərini ünvanladı:

– İş tapmaq üçün əməkdaşlıq və yaradıcılıq mühüm faktordur. Çalışın, ünsiyyət qurun, dostlaşın. Eləcə də öz hekayənizi yaratmağı bacarın.

Aktyor, müəllim olmaqla yanaşı, hüquqşünas kimi də fəaliyyət göstərən Trost sevgi, dostluq, sülh barədə də düşüncələrini bizimlə bölüşdü:

– Səbəb nə olur-olsun, mübahisələri danışaraq həll etmək olar. Şiddət çıxış yolu deyil... Sizinlə biz zatən bir-birimizə yaxınıq. Düzdür, müəyyən mədəni fərqlər var, ancaq oxşarlıqlar da çoxdur. Ünsiyyətlə, anlaşma ilə dünyada bir çox problemləri həll edə bilərik.

Söhbətin sonunda Skott Trost Bakıda bir çox tədbirlərdə iştirak edəcəyini söylədi və iştirakçılarla xatirə fotoları çəkdirdi.

*Aynur HİLALİ*

# Meymunçiçəyi ölkəmizə kənardan gətirilə bilər

## *İlk növbədə, xarici yoluxmalardan qorunmaq tələb olunur*

**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin yaydığı son açıqlamada qeyd olunur ki, bu günə qədər TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində meymunçiçəyi xəstəliyinə yoluxma halına rast gəlinməyib.**



Bildirilir ki, bəzi əlamətlərə görə, virusa yoluxma şübhəsi olan şəxslərdən qaydalara uyğun olaraq nümunə götürülərək ərazi üzrə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə göndərilib. Hazırda TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində xəstələrin müalicəsi üçün uyğun infrastruktur mövcuddur. Tibb müəssisələri virus əleyhinə dərman vasitələri ilə təmin olunub.

Açıqlamada göstərilir: "Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin mütəxəssisləri meymunçiçəyi xəstəliyinin diaqnostika və müalicəsi üzrə birgə hazırlanmış klinik protokola əsasən vəziyyəti nəzarətdə saxlayırlar. Nazirliyin Elmi-Tibbi Şurasının qərarı ilə təsdiq edilmiş bu sənədin tələbləri ilkin səhiyyə xidmətində çalışan terapevtlər, pediatrlar, ailə həkimləri, təcili tibbi yardım həkimləri, həmçinin yoluxucu və dəri-zöhrəvi xəstəliklər üzrə mütəxəssisləri əhatə edir".

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov xəstəliyin özəlliyi və onun müalicə üsulları ilə bağlı XQ-yə bildirdi:**

– Meymunçiçəyi insanlarda və heyvanlarda yayılan virus infeksiyasıdır. İlk dəfə 1958-ci ildə laboratoriya meymunlarında aşkar edildiyindən infeksiyaya "meymunçiçəyi" adı verilib. Başqa gəmiricilər və digər vəhşi heyvanlar da həmin virusu daşıya bilər. Xəstəliyin simptomları və müalicəsi ilə bağlı deyə bilərik ki, meymunçiçəyi, adətən, infeksiya ilə təmasdan 6–13 gün sonra özünü göstərir. Bu müddət 5–21 gün arasında dəyişə bilər.

Əsas simptomlar temperatur, baş və əzələ ağrıları, yorğunluq, limfa düyünlərində şişkinlik, səpgidir. Öncə qızdırma, 1–3 gün sonra dəridə səpgilər yaranır. Qabarcıqlar üz, əl və ayaqlarda başlayır və sonra digər nahiyələrə yayılır. Qırmızı ləkələr suluqlara və nəticədə, qabıqlara çevrilir. Dəri səpgiləri –lezyonlar suçiçəyi və ya çiçək xəstəliyinə bənzəyir.

Meymunçiçəyi üçün xüsusi müalicə olmasa da, dəstəkləyici müalicə və ağırlaşmaların idarə edilməsi vacibdir. Müalicə, adətən, simptomları aradan qaldırmağa yönəldilir. Qızdırma, ağrı və qaşınma hallarına qarşı ağrıkəsicilər və hərarətsalıcı dərmanlardan istifadə edilə bilər. Bədəndə maye itkisinin qarşısını almaq vacibdir. Dəri lezyonlarına yoluxmamaq üçün antiseptik müalicə tətbiq olunur. Yoluxma baş verməsin deyə, xəstələr təcrid edilir.

Bəzi hallarda çiçək xəstəliyini müalicə etmək üçün istifadə edilən antiviral dərmanlar (tekovirimat kimi) meymunçiçəyi xəstəliyində də istifadə edilə bilər.

Çiçək xəstəliyinə qarşı vurulan peyvənd insanı meymunçiçəyindən də qoruya bilər. Epidemiya zonalarında bu peyvəndlərdən profilaktik tədbir kimi istifadə edilir. Xəstəliyin gedişi, adətən, bir neçə həftəyə sağalma ilə nəticələnir. İmmun sistemi zəif olan insanlarda və uşaqlarda virus daha təhlükəli ola bilər.

**İnfeksionist ölkədəki epidemioloji durumu belə səciyyələndirdi:**

– Meymunçiçəyi əlamətləri təbii çiçək xəstəliyinə oxşayan viruslu zoonozdur. Lakin kliniki olaraq təbii çiçək xəstəliyindən daha yüngül keçir. İnfeksiyanın daşıyıcılarına bir sıra gəmiricilər və insana bənzəməyən primatlar daxildir. Rəsmi qurumların verdiyi məlumata görə, ölkəmizdə meymunçiçəyi infeksiyasına yoluxma halı qeydə alınmasa da, onun yayılmaması məqsədilə bütün ilkin profilaktik tədbirlər aidiyyəti qurumlar tərəfindən icra olunur.

Ümumilikdə, Azərbaycanda digər infeksiyalar da nəzərə alınmaqla, epidemioloji durum sabitdir. Meymunçiçəyi virusunun laborator müayinəsi məqsədilə ölkəyə testlər və xəstəliyə qarşı kifayət qədər dərman preparatları gətirilib.

Viruslar bədənə zədələnən dəri, nəfəs yolları və ya selikli qişalarla (ağız, burun, göz) daxil olur. Heyvandan insana isə dişləmə, cırmaqlama, ov ətinin yeyilməsi, bədən mayeləri ilə birbaşa və yara materialları ilə dolayı yolla keçir. Xəstəlik bir insandan başqasına iri respirator damcılarla ötürülür. Yoluxma uzunmüddətli və sıx təmasdan törəyir.

Xəstəliyin gizli gedişindən sonra 5 günədək davam edən başlanğıc dövründə qızdırma, şiddətli baş ağrısı, limfa düyünlərinin böyüməsi, bel və əzələ ağrıları, bəzən kataral və mədə-bağırsaq əlamətlərinə rast gəlinir. Meymunçiçəyindən ölüm halları 0–10 faiz arasında dəyişir.

**Müsahibimiz risk qrupuna daxil olanlar barədə bildirdi:**

– Risk qrupları arasında azyaşlı uşaqlar, hamilə qadınlar, immundefisitli şəxslər xüsusi yer tutur. İnfeksiyanın profilaktikası qeyri-spesifik (qoruyucu, gigiyenik qaydalara əməl olunması) və spesifik (vaksinasiya) tədbirlərdən ibarətdir. Əsas məqamlardan biri də xəstələrin vaxtında aşkar edilərək təcrid olunmasıdır. Onu qeyd edim ki, ölkəmiz bu xəstəlik üçün endemik zona deyil. Amma yay fəslində turizm xətti ilə, miqrasiya nəticəsində virusa yoluxma ehtimalını inkar etmək olmaz. Ona görə də insanlarla, xüsusilə, xarici ölkə vətəndaşları ilə və ya istirahət üçün ölkə hüdudlarından kənara çıxıb qayıdan şəxslərlə sıx təmasda olmaqdan çəkinməkdə fayda var.



*Zərifə BƏŞİRQIZI*
*XQ*


"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansında olan əmlakın (aktivin) 13 sentyabr 2024-cü il saat 16.00-da müsabiqə yolu ilə satışının keçirilməsi barədə

ELAN

**I. Satılacaq əmlaklar barədə məlumat:**

| S/N | Növü | Ünvanı | Tikili sahəsi (kv.m) | Torpaq sahəsi (ha) | Torpaq sahəsinin kateqoriyası (təyinatı) | Yüklülük vəziyyəti | Start qiyməti (manatla) |
|---|---|---|---|---|---|---|---|
| 1 | yaşayış sahəsi | Zaqatala şəhəri, Faiq Əmirov küçəsi ev 37, mənzil 30. | 54,80 | - | - | yüklü deyil | 24.500,0 |

**Müsabiqə ilə bağlı əlavə məlumatlar:**

**Ərizə və təkliflər sifarişli məktub göndərməklə və ya şəxsən (və ya səlahiyyətli nümayəndə vasitəsi ilə) təqdim etməklə rəsmiləşdirilir:** "Aqrarkredit" QSC-nin baş ofisi, AZ1006, Azərbaycan Respublikası, Bakı şəhəri, Qədirli küçəsi 125.

Ərizələrin qəbulunun başlanması və bitməsi tarixi: 2 sentyabr 2024-cü il – 10 sentyabr 2024-cü il.

**Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı:** 13 sentyabr 2024-cü il, saat 16.00-da.

**Müsabiqənin keçirildiyi ünvan:** "Aqrarkredit" QSC-nin baş ofisi, AZ1006, Azərbaycan Respublikası, Bakı şəhəri, Qədirli küçəsi 125.

**Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olma qaydası və müddəti:** 2 sentyabr 2024-cü ildən 10 sentyabr 2024-cü ilədək, həftənin 3-cü və 5-ci günləri,

"Aqrarkredit" QSC-nin baş ofisi: Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

**Əlaqəli şəxs:** Şahin Seyidov. Telefon -050-235-99-90.

**İddiaçılar qarşısında irəli sürülən şərtlər:**

**1.** İddiaçı tərəfindən əmlakın dəyərinin 5 faizi həcmində beh məbləğinin ödənişi.

**2.** Müsabiqənin qalibinin əmlakın dəyərinin 7 (yeddi) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanəti.

**3.** Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

**4.** Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir.

**5.** İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər bərabər olduqda həmin iddiaçılar yeni məbləği və əmlakın dəyərinin tam ödənilməsi müddəti göstərilməklə yenidən təklif təqdim etməlidirlər. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

**6.** İddiaçılar tərəfindən təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılacaqdır.

**7.** Müsabiqə zamanı əmlakın start qiymətindən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:**

**1.** İddiaçının ərizəsi (iddiaçı özü və iddia etdiyi aktivin məlumatlarını tam əks etdirməklə).

**2.** İddiaçının şəxsiyyətini təsdiq edən sənəd.

**3.** Təklif (bağlı zərfdə qiymət rəqəmlə və sözlə göstərilməklə).

**4.** İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.

**5.** İddiaçının müsabiqədə nümayəndəsi olduğu halda etibarnaməsinin və şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Beh ödənilməsi üçün bank rekvizitləri:**

**Kodu:** 501587

**VÖEN:** 1300025711

**SWIFT BIC:** ACJTAZ22

**Ünvan –** AZ 1006, Bakı şəhəri, Qədirli küçəsi 125.

**Mərkəzi Bankda müxbir hesab-**AZ45NABZ 01350100000000035944.

**Beh məbləği köçürülür:**

"Aqrarkredit" QSC-nin Maliyyə departamentinin əməliyyat şöbəsi.

H/h- AZ67ACJT45019192794010094401.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 186 (30590) 30 avqust 2024-cü il, cümə

# Paralimpiya komandamız ilk medalı qazandı





**Parisdə yarış həyəcanı başlayıb. Dördilliyin mötəbər idman tədbirinə Parisdə Yelisey meydanı boyunca Konkord meydanına qədər keçirilən paradla start verilib. Açılış mərasimində Azərbaycan bayrağını parataekvondoçu İmaməddin Xəlilov və paraatlet Lamiyə Vəliyeva dalğalandırıblar. Mərasimi 65 min tamaşaçı izləyib.**

Oyunların ilk günündə Azərbaycanın 3 idmançısı mübarizə aparıb. Paraüzgüçülük yarışlarında Azərbaycan təmsilçisi Könül Süleymanova da start xəttinə çıxıb. S2 kateqoriyasında çıxış edən idmançımız 100 m məsafəyə arxası üstə üzmədə mübarizə aparıb və 4:03,04 dəqiqəlik göstərici ilə qrupda 5-ci olub. O, yekunda ilk “səkkizliy”ə düşə bilmədiyi üçün final mərhələsinə yüksələ bilməyib. Millimizi Fransa paytaxtında 3 paraüzgüçü təmsil edir. Raman Salei avqustun 31-də, Vəli İsrafilov isə sentyabrın 5-də çıxış edəcəklər.

Daha sonra parakamandan oxatma üzrə yığmanın üzvü Cahan Musayev hədəfi dəqiq nişan almağa çalışıb. Cahan Musayev yekun sıralamada 568 xalla 30 idmançı arasında 28-ci olub.

Dünən parataekvondoçumuz Sabir Zeynalov (K-44 -58 kq) da dayanq üzərinə çıxıb. İlk mərhələdən azad olan Sabir Zeynalov 1/4 finalda Mitsuya Tanaka (Yaponiya) ilə üz-üzə gəlib. Gərgin keçən döyüş parataekvondoçumuzun qələbəsi ilə bitib. 6:5 hasabı ilə qalib gələn Zeynalov yarımfinala yüksəlib.

Yarımfinalda türkiyəli Can Özcana uduzan Sabir Zeynalov bürünc uğrunda yarışıb. Parataekvondoçumuz tailandlı Tanva Taenxamla döyüşüb və inamlı qələbə qazanıb – 12:3. Bu, yığmamızın Fransa paytaxtında ilk medalı olub.

Digər parataekvondoçularımız – İmaməddin Xəlilov bu gün, Əbülfəz Abuzərli isə sabah mübarizəyə qoşulacaqlar.

Qeyd edək ki, Azərbaycan sentyabrın 8-dək davam edəcək oyunlarda 7 növ üzrə 18 idmançı ilə təmsil olunur.

***Leyla QURBANOVA***
***XQ***

## Atletlər kəndində görüş




**Milli Paralimpiya Komitəsinin rəhbərliyi ilə Gənclər və İdman Nazirliyinin rəsmiləri Parisdəki Atletlər kəndində Azərbaycan milli komandasının üzvləri ilə görüşüblər.**

Mərasimdə Prezident İlham Əliyevin ölkəmizdə idmanın, o cümlədən paralimpiyanın inkişafının xüsusi diqqət mərkəzində saxladığı vurğulanıb. Paris-2024 Yay Paralimpiya Oyunlarında mübarizə aparacaq paralimpiyaçılarımıza uğurlar arzulanıb. İdmançılarımızın qarşıdakı yarışlarda yeni parlaq qələbələrə imza atmaq əzmində olduğu bildirilib.

## Cüdoçumuz dünya çempionu oldu

**Azərbaycan cüdoçuları Perunun paytaxtı Limada yeniyetmələr arasında keçirilən Dünya çempionatına uğurla start veriblər.**



Komandamızın üzvü 55 kiloqram çəki dərəcəsində çıxış edən Nihad Məmişov bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. 50 kiloqramda mübarizə aparan Məhəmmədəli Hüsiyev isə 3-cü yeri tutub.

Avqustun 31-dək davam edəcək yarışlarda Azərbaycan 7 cüdoçu ilə təmsil olunur.

## “Formula 1” günlərində nəqliyyatda məhdudlaşdırma



**Bakıda sentyabrın 13-15-də keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi 2024 ilə əlaqədar logistik əməliyyatların həyata keçirilməsi məqsədilə sentyabrın 7-si gecə saat 01:00-dan etibarən Puşkin küçəsinin Üzeyir Hacıbəyov küçəsi və Neftçilər prospekti ilə kəsişməsindən olan hissəsi nəqliyyatın hərəkəti üçün məhdudlaşacaq. Məhdudiyyət tədbirin sonunadək davam edəcək.**

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən qəzetimizə verilən məlumata görə, Nəqliyyatın İdarəetmə Planına əsasən, Bakı Şəhər Halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər sentyabrın 9-u gecə saat 01:00-dan etibarən nəqliyyatın hərəkəti üçün bağlı olacaq.

Hərəkət sentyabrın 17-də səhər saat 8:00-dan etibarən bərpa olunacaq.

***L.QURBANOVA***
***XQ***

*2016-cı ildə Fövqəladə Hallar Nazirliyi tərəfindən Ağalarov Bəhruz Bakir oğlunun adına verilmiş A seriyalı 1001991 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

## Şəki-Zaqatala: 196 məzun 600-dən yuxarı bal toplayıb

**Şəki-Zaqatala Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələri üzrə 2023-2024-cü tədris ilində buraxılış və ali məktəblərə qəbul imtahanlarının nəticələrinə əsasən, 196 məzun 600 baldan yuxarı nəticə göstərib.**



İdarədən mətbuata bildirilib ki, buraxılış və qəbul imtahanlarında Şəkinin təhsil müəssisələri üzrə 71 məzun, Qəbələ rayonu üzrə 53, Zaqatala rayonu üzrə 29, Qax rayonu üzrə 17, Balakən rayonu üzrə 15 və Oğuz rayonu üzrə 11 məzun 600-dən çox bal toplayıb.

Regionun təhsil müəssisələri üzrə ən yüksək nəticəni Şəki şəhər 18 nömrəli tam orta məktəbin məzunu Zərifə İlyasova göstərib. O, I ixtisas qrupu üzrə imtahanlarda 700 bal toplayıb. Zaqatala üzrə isə ən yüksək nəticəyə rayonun Musa Musayev adına Dağlı kənd tam orta məktəbin məzunu Fəxri Orucov nail olub - 689 bal. Digər rayonlar üzrə ən yüksək nəticəni Balakən rayonu A.Novruzov adına Humanitar və texniki təmayüllü liseyin məzunu Ülvi İbadov (683), Qəbələ rayonu Həmzəli kənd tam orta məktəbin məzunu Elşən Yusibov (682 bal), Qax rayonu Almalı kənd tam orta məktəbin məzunu Nihad Mahmudzadə (671 bal), Oğuz rayonu Bucaq kənd tam orta məktəbin məzunu Fəridə Rəşidzadə (668 bal) göstəriblər.

***XQ***

## Ananası yeyərsən, faydasını görərsən

**Ananas uşaqların da, böyüklərin də çox sevdiyi tropik meyvədir. O, ödemi azaltmağa kömək edən xüsusiyyətləri ilə seçilir. Bunun əsas səbəbi ananasın tərkibindəki bromelain fermenti və yüksək səviyyədə suyun olmasıdır.**



Qeyd edək ki, ödem bədəndə həddindən artıq maye yığılması nəticəsində toxumaların şişməsidir. Adətən, əllər, ayaqlar, ayaq biləyi kimi nahiyələrdə dəri altında baş verir, lakin bəzi hallarda bədənin digər hissələrində də ödemə rast gəlmək mümkündür.

Bu hal yalnız estetik baxımdan xoş görünmür, həm də ödemin toplanması sağlamlıq üçün yaxşı əlamət deyil. Mütəxəssislər ödem üçün təbii vasitə olaraq ananas yeməyi məsləhət görürlər. Çünki ananasın tərkibində olan bromelain fermenti iltihab əleyhinə xüsusiyyətlərə malikdir. Bu da toxumalarda şişkinliyi və ödemi azaltmağa kömək edə bilər. Bu ferment, xüsusilə zədələr və ya cərrahi əməliyyatlardan sonra yaranan ödemi azaltmağa kömək edir.

Ananasın yüksək su tərkibi bədənin nəm balansını qoruyur və toksinləri çıxarır.

Araşdırmalarla sübut olunub ki, gündə 1 dilim ananas qəbul edən insanlarda heç vaxt ödem, şişkinlik olmur.

***Z.HÜSEYNLİ***
***XQ***

## Yenə də Aranda günəşli, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 30-da Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.**



Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 26-27° isti, Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 33-38°, dağlarda gecə 13-18°, gündüz 21-26° isti olacaq.

***Qəzənfər QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

“Azərsutikinti” SC-nin sədri Yusif Hümbətov “Azərkəndtikinti” Açıq Səhmdar Cəmiyyətinin sədri, Prezident təqaüdçüsü və “Şöhrət “ ordenli

**LİTVİN ABASOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Konservatoriyasının kollektivi iş yoldaşları İbadət Hüseynovaya bacısı

**NAİLƏ ASLANOVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 3706 |
| SİFARİŞ | 1868 |
| QİYMƏTİ | 60 qəpik |

**Növbətçi redaktor**
**Vaqif BAYRAMOV**
**Çapa imzalanmışdır 00:00**